

Milli azadlıqdan şirin nemət yoxdur!

# Ulu Öndər Heydər Əliyev insanları tanıyırdı...

## İlham Əliyev Artur Rasi-zadəyə “Heydər Əliyev” ordenini təqdim edib



Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
21 fevral 2025-ci il, cümə
№ 032 (6860)
Qiymət 60 qəpik




## Milli mənliyin açarı, gələcək nəsillərə əmanət - ANA DİLİMİZ

Bax səh. 4

# Böyük Qayıdış: Qarabağ və Şərqi Zəngəzur dirçəlir




Bax səh. 3

# Bölgədənkənar qüvvələrin regiona müdaxiləsi qəbuledilməzdir

Bax səh. 2

## Gələcək hədəflər bəllidir

“Azərbaycan və Türkiyə arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumunun 5 ili: Birgə fəaliyyətə baxış, gələcək hədəflər” mövzusunda dəyirmi masa tədbiri keçirilib. Tədbir fevralın 19-da Sosial Tədqiqatlar Mərkəzi (STM), Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin Bakı Mətbuat Müşavirliyi və Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə baş tutub.

Türkiyə və Azərbaycan Media Platforması çərçivəsində təşkil olunan tədbirdə iki ölkə arasında media sahəsində əməkdaşlığın cari vəziyyəti, əldə olunan nailiyyətlər və gələcək perspektivlər müzakirə olunub.

Tədbirin açılışında çıxış edən STM-nin İdarə Heyətinin sədri, deputat Zahid Oruc Azərbaycan və Türkiyə arasındakı qardaşlıq əlaqələrinə diqqət çəkib: “Qlobal dəyişikliklər və yeni dünya təhlükəsizliyi arxitekturasının axtarıldığı bir dövrdə Azərbaycan və Türkiyə mediasının bir araya gəlməsi mühüm hadisədir. Qürurlu tarixə malik Azərbaycan-Türkiyə sarsılmaz birliyi mürəkkəb formasiya və quruluşlardan keçərək son 5 ildə yeni zirvələrə yüksəlib. Bunun başlıca səbəbi isə hər iki ölkənin liderləri arasındakı sarsılmaz qardaşlıq münasibətləridir. Düşünürəm ki, növbəti illər ərzində bu münasibətlər özünün ən yüksək zirvəsinə çatacaq”.

**Liderlərimizin siyasi iradəsi media əməkdaşlığını gücləndirir**

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov qeyd edib ki, Prezident İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın güclü siyasi iradəsi nəticəsində iki ölkə arasında qardaşlıq münasibətləri möhkəmlənib: “Bu münasibətlər regionumuzun inkişafına ciddi töhfə verən intensiv əlaqələr media sahəsi də daxil olmaqla, bütün sahələrə öz dinamik təsirlərini göstərir.

Hər iki ölkənin liderlərinin qarşılıqlı səfərləri dövlətlərimiz arasında əlaqələrin və strateji tərəfdaşlığın inkişaf etdirilməsi baxımından mühüm tarixi hadisədir. Bu səfərlər, habelə səfər çərçivəsində imzalanan sənədlər Azərbaycan və Türkiyə...

Bax səh. 4

## Bakı Bəyannaməsi qəbul olundu



Bax səh. 3

## Sürətli, etibarlı və daha aşağı komissiya ilə...

Bax səh. 5

## “Bitcoin” yenidən bahalaşır

Bax səh. 5

## Cəbhədə və masada...

Bax səh. 6

## Aİ Ermənistanı itirməkdən niyə qorxur?

Bax səh. 7

## Yolun sonu yaxınlaşır...

Bax səh. 7

## İslamdaxili Dialoq Konfransında...

Bəhreyn Kralı Həməd bin İsa Əl Xəlifənin himayədarlığı ilə fevralın 19-da Bəhreyn krallığının paytaxtı Manamada “Bir ümmət, bir tale” şüarı altında İslamdaxili Dialoq Konfransı öz işinə başlayıb.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Mətbuat Xidmətindən bildirilib ki, Əzhər Əl-Şərif, Bəhreynin İslam Məsələləri üzrə Ali Şurası və Müsəlman Ağsaqqalları Şurasının birgə təşkilatçılığı ilə keçirilən konfransda İslam dünyasının tanınmış sünni və şiə məzhəblərinin üləmaları, mərceyi-təqlidləri, alim və mütəfəkkirləri və İslam dininin görkəmli xadimləri iştirak edirlər.

QMİ sədri, Müsəlman Ağsaqqalları Şurasının üzvü şeyxülislam Allahşükür Paşazadə Bəhreyn Kralı Əlahəzrət Həməd bin İsa Əl Xəlifə ilə konfrans şərəfinə qəbul mərasimində görüşüb. O, görüş zamanı Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və xoş arzularını Krala çatdırıb.

Bəhreyn Konfransının açılış mərasimində Malayziyanın Baş naziri Ənvər İbrahim, Qazaxıstan Parlamenti Senatının sədri Maulen Aşimbayev, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Hüseyn Brahim Taha, Əl-Əzhəri Şərifin Şeyxi, Böyük İmam Əhməd ət-Tayyib, Bəhreynin İslam Məsələləri üzrə Ali Şurasının sədri Əbdül Rəhman bin Məhəmməd bin Rəşid əl-Xəlifə, Müsəlman Ağsaqqallar Şurasının Baş katibi Məhəmməd Əbdülsəlam, İslam Əməkdaşlıq Təşkilatının sabiq Baş katibi Ekmələddin İhsanoğlu, müsəlman dünyasının bir sıra görkəmli din, dövlət və ictimai xadimləri çıxış ediblər.

Müsəlman dünyası və bütövlükdə bəşəriyyətin gələcəyi naminə qarşılıqlı anlaşma mühitində dialoq məramı ilə keçirilən konfransda məruzə ilə çıxış edən şeyxülislam A.Paşazadə islamdaxili həmrəyliyin təmin olunması naminə İslam-İslam dialoqu, məzhəblərarası anlaşma istiqamətində vəsatiyyənin tətbiqi, müqəddəs dinimizin mötədil dəyərlərinə istinad yönündə birgə səylərini yüksək dəyərləndirib.

QMİ sədri Azərbaycanda...

Bax səh. 4

## Ukraynada silahlar sussa...



Bax səh. 6

## İkinci cəhd...



Bax səh. 7

# Ulu Öndər Heydər Əliyev insanları tanıyırdı...

## Prezident İlham Əliyev Artur Rasi-zadəyə “Heydər Əliyev” ordenini təqdim edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də Artur Rasizadəni qəbul edib və ona “Heydər Əliyev” ordenini təqdim edib.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən dövlətimizin başçısı dedi:

-Hörmətli Artur müəllim, sizi qarşıdan gələn yubileyiniz münasibətilə təbrik edirəm, sizə cansağlığı, uzun ömür arzulayıram. Siz uzun illər ərzində Azərbaycanın inkişafına töhfə vermisiniz. Müxtəlif məsul vəzifələrdə çalışaraq Azərbaycan iqtisadiyyatının inkişafı üçün böyük səylər göstərmisiniz həm sovet dövründə, həm də müstəqillik dövründə. Ulu Öndər Heydər Əliyev sovet dövründə sizin peşəkarlığınızı, biliklərinizi nəzərə alaraq,- hələ o vaxt siz gənc yaşlarınızda idiniz,- sizi qabağa çəkərək, önəmli vəzifələrə təyin etmişdir, Nazirlər Sovetinin sədrinin müavini vəzifəsinə. Ulu Öndər Heydər Əliyev müstəqillik dövründə Azərbaycan Prezidenti seçiləndən sonra ilk təyinatlarından biri də sizi özünə köməkçi təyin etməyi idi. Ondan sonra sizi daha böyük vəzifəyə layiq gördü və Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin etdi.



Təbii olaraq, Ulu Öndər Heydər Əliyev insanları tanıyırdı, onların peşəkarlığını, biliklərini və bilirəm ki, sizi də bir insan kimi həmişə yüksək qiymətləndirirdi. Həm dediyim keyfiyyətlərə, eyni zamanda, prinsipial mövqeyinizə görə. Sizin prinsipial mövqeyiniz bütün məsələlərdə özünü göstərirdi - həm ölkəmizin iqtisadi inkişafı ilə, həm də bütün başqa məsələlərlə bağlı.

Biz sizinlə 15 il işləmişik - 2003-cü ildən 2018-ci ilə qədər. Hesab edirəm ki, o illər Azərbaycan iqtisadiyyatı üçün ən sürətli inkişaf illəri olmuşdur. Azərbaycan iqtisadiyyatı o illərdə bəlkə də iki dəfə çox artmışdır və ölkə qarşısında duran əsas infrastruktur layihələrinin həlli, ya da ki, başlanması məhz o illərə təsadüf edir. Sizin rəhbərliyinizlə Nazirlər Kabineti Prezidentin tapşırıqlarını ləyaqətlə yerinə yetirirdi və bu gün Azərbaycanın dayanıqlı iqtisadi inkişafı təbii olaraq bizim müstəqilliyimizin əsasını təşkil edir. Birlikdə işlədiyimiz 15 il ərzində daim təmasda idik, məsələləri müzakirə edirdik, həll edirdik. 2018-ci ildən sonra da təmasdayıq. Şadam ki, siz yubileyinizi çox yaxşı fiziki formada qarşılayırsınız və sizi həmişə görmək mənim üçün xoşdur. İllər boyunca bir çox telefon söhbətimiz olubdur, bir çox məsələləri müzakirə etmişik. Sizi bu gün gözəl yubiley ərəfəsində dəvət etdim ki, sizə Azərbaycan dövlətinin ən ali mükafatı olan “Heydər Əliyev” ordenini təqdim edim. Bu gün imzaladığım Sərəncamla siz ölkəmizin ən ali mükafatına layiq görülmüsünüz. Siz buna layiqsiniz, siz Heydər Əliyevin etibarlı silahdaşı olmusunuz. Yenə də deyirəm, həm sovet dövründə, həm müstəqillik dövründə, özü də müstəqilliyimizin ən ağır dövrlərində atamın yanında olmusunuz. O, bunu qiymətləndirirdi, mən də həmişə qiymətləndirirdim və qiymətləndirirəm. Bu, tam ədalətli bir qərardır və icazə verin, mən bu yüksək ordeni sizə təqdim edim.

***

Prezident İlham Əliyev “Heydər Əliyev” ordenini Artur Rasi-zadəyə təqdim etdi.

***

Əməyinə verdiyi qiymətə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Artur Rasi-zadə Ulu Öndər Heydər Əliyevin adını daşıyan ordenə layiq görülməyin onun üçün ən böyük şərəf olduğunu dedi, Ümummilli Liderlə və Prezident İlham Əliyevlə uzun illər ərzində çalışmaqdan fəxr hissi keçirdiyini vurğuladı. Artur Rasi-zadə Azərbaycan Prezidentinin tarixi hadisənin müəllifi olduğunu, torpaqlarımızın 30 illik işğalına son qoyduğunu və orada yeni həyatın başladığını qeyd etdi.




“Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)” Azərbaycan Respublikasının yubiley medalı təsis edilib.

Bununla bağlı Prezident İlham Əliyev müvafiq Fərman imzalayıb.

“Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin İcraçı direktoruna verilib.

# Əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib

**Azərbaycan Prezidenti Pakistan Senatının sədrini qəbul edib**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Pakistan İslam Respublikasının Senatının sədri Seyid Yusuf Rza Gilanini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Seyid Yusuf Rza Gilani Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdari və Baş naziri Məhəmməd Şahbaz Şərifin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Pakistanın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

Qonaq Bakıda COP29-un uğurla keçirilməsi münasibətilə bir daha təbriklərini çatdırdı.

Dövlətimizin başçısı Pakistanın Baş nazirinin COP29-da iştirakını məmnunluqla xatırlayaraq bunu yüksək qiymətləndirdi.



Görüşdə Azərbaycan ilə Pakistan arasında iqtisadi-ticari, energetika və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı, uğurlu hərbi əməkdaşlığın həyata keçirildiyi vurğulandı. Eyni zamanda, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəkləməsindən məmnunluq ifadə olundu, parlamentlərimiz arasındakı əlaqələrin və hökumətlərarası komissiyanın işinin əhəmiyyəti qeyd edildi.

Azərbaycan ilə Pakistan arasında əlaqələrin Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli əməkdaşlıq formatında inkişafı və bu formatda üçtərəfli görüşlərin əhəmiyyətinə toxunuldu.

Qonaq dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

# İlham Əliyev Puan Maharanini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da İndoneziya Respublikası Nümayəndələr Palatasının sədri Puan Maharanini qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Bakıda keçirilən Asiya Parlament Assambleyasının “Asiyada çoxtərəfli əməkdaşlığın gücləndirilməsində parlament diplomatiyasının rolu” mövzusuna həsr edilmiş 15-ci plenar sessiyasının önəminə toxunuldu, bu tədbirin parlamentlərarası əməkdaşlığın gücləndirilməsi işinə töhfə verəcəyinə ümidvarlıq ifadə olundu.

Görüşdə Azərbaycanla İndoneziya arasında əlaqələrin perspektivləri, həmçinin parlamentlərimiz arasında əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparıldı.

Qonaq dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

## Prezident İlham Əliyev Belarus Milli Assambleyası Respublika Şurasının sədrini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Belarus Respublikası Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanovanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, Natalya Koçanova Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Aleksandr Lukaşenkoya çatdırmağı xahiş etdi.

Söhbət zamanı ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrimizin inkişaf etdiyi qeyd olundu. Keçən il Belarus Prezidentinin ölkəmizə dövlət səfəri məmnunluqla xatırlanaraq, onun münasibətlərimizin inkişafında rolu vurğulandı.

# Bakıdakı inkişaf prosesi...

## Qonaqlarda dərin təəssürat yaradıb



Ölkəmizə ilk dəfə səfər etdiyini deyən Natalya Koçanova Bakıda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi.

Görüşdə ölkələrimizin parlamentləri arasında əlaqələrin uğurla inkişaf etdiyi qeyd olundu, Bakıda Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyasının keçirilməsinin önəminə toxunuldu.

Qonaq dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

# Bölgədənkənar qüvvələrin regiona müdaxiləsi qəbuledilməzdir

## İran İslam Şurası Məclisinin sədri Prezident İlham Əliyevin qəbulunda

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqir Qalibafın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti iki ölkənin xalqlarının ortaq tarixi, mədəni və dini köklərinin olduğunu, xalqlarımızın yaxınlığını vurğuladı.

Son dövrlərdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında müxtəlif səviyyələrdə ikitərəfli səfərlərin intensiv xarakter daşımasını məmnunluqla qeyd edən Prezident İlham Əliyev bunu əlaqələrimizin dinamik surətdə inkişafının təzahürü kimi qiymətləndirdi. Dövlətimizin başçısı ölkələrimizin parlamentlərarası əlaqələrinin genişləndiyini qeyd etdi və İran İslam Şurası Məclisinin sədrinin Azərbaycana səfərinin bu əlaqələrin daha da inkişafına təkan verəcəyinə ümidvar olduğunu bildirdi.



Azərbaycan Prezidenti iqtisadi-ticari, nəqliyyat, enerji və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxundu. Şimal-Cənub nəqliyyat dəhlizinin əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev bu dəhlizin Azərbaycana aid olan hissəsində yükdaşıma imkanlarının artırılması üçün ölkəmiz tərəfindən zəruri işlərin görüldüyünü dedi. Dövlətimizin başçısı Ağbənd keçidinin inşası istiqamətində fəaliyyətin intensiv şəkildə həyata keçirildiyini və bu layihənin regionun nəqliyyat imkanlarının artırılmasına töhfə verəcəyini qeyd etdi.

Prezident İlham Əliyev regional məsələlərin region ölkələri tərəfindən həll edilməli və bölgədənkənar qüvvələrin regiona müdaxiləsinin qəbuledilməz olduğunu dedi, 3+3 formatının əhəmiyyətini vurğuladı.

Məhəmməd Baqir Qalibaf İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarının Məsud Pezeşkiana çatdırılmasını xahiş etdi.

Qonaq Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyasının Bakıda yüksək səviyyədə təşkil olunduğunu söylədi, iki ölkə arasında səfərlərin intensiv xarakter daşımasından məmnunluğunu diqqətə çatdırdı.

Azərbaycan ilə İran arasında iqtisadiyyat, ticarət, elm, texnologiya, səhiyyə sahələrində və digər sahələrdə əməkdaşlığın inkişafı üçün çox yaxşı imkanların olduğunu vurğulayan Məhəmməd Baqir Qalibaf bu xüsusda hökumətlərarası komissiyanın işinin daha da intensivləşdirilməsinin vacibliyinə toxundu.

Ölkəsinin Azərbaycanla birlikdə regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasında ortaq maraqları bölüşdüyünü deyən qonaq İranın regionun məsələlərinin region ölkələri tərəfindən həll edilməsi yanaşmasını dəstəklədiyini bildirdi. O, Azərbaycan ilə İranın beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyini və yaxından əməkdaşlıq etdiklərini vurğulayaraq, 3+3 formatının əhəmiyyətini qeyd etdi.

Məhəmməd Baqir Qalibaf dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

# Böyük Qayıdış: Qarabağ və Şərqi Zəngəzur dirçəlir

İkinci Qarabağ müharibəsindən əvvəl bizim əsas ümummilli ideyamız respublikanın ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsi ilə bağlı idi. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində və lokal xarakterli antiterror tədbirlərində qazanılan şanlı qələbələr sayəsində bu hədəfimizə çatdıq. Postmüharibə dövrünün əsas hədəflərindən biri isə işğaldan azad olunmuş ərazilərin bərpası və ora Böyük Qayıdışın təmin edilməsidir. “Vətən həsrəti ilə yaşamış insanlar üçün ən yaxşı şəraiti yaratmaq dövlətimizin borcudur. Mənim də Prezident kimi əsas borcum bu gün bundan ibarətdir”, - deyə Prezident İlham Əliyev bu günlərdə işğaldan azad olunmuş ərazilərə növbəti səfəri çərçivəsində Xocalı rayonunun Ballıca kənd sakinləri ilə görüşdəki çıxışında bildirib.





İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın təmin edilməsi postmüharibə dövründə başlayan yeni strateji mərhələdə Azərbaycanın beş mühüm prioritetindən biri kimi müəyyənləşdirlib. Güclü və məsuliyyətli dövlət olan Azərbaycan otuz il ərzində ağır qaçqınlıq və məcburi köçkünlük taleyi yaşamış soydaşlarımızın yurd yerlərinə qayıdışını layiqli şəkildə və qısa müddətdə həyata keçirmək əzmindədir. Prezident İlham Əliyevin 16 noyabr 2022-ci il tarixində imzaladığı müvafiq Sərəncamla “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” təsdiqlənib. Bəhs olunan Dövlət Proqramına uyğun olaraq ərazilərin minalardan təmizlənməsi, yeni infrastrukturun qurulması, yaşayış məntəqələrinin, tarixi abidələrin bərpası, istehsal müəssisələrinin yaradılması istiqamətində genişmiqyaslı layihələr həyata keçirilir, Qarabağ və Şərqi Zəngəzur dirçəlir. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın bu günlərdə Ağdama, Xankəndinə və Xocalıya səfərləri də doğma yurd yerlərinə qayıdan insanlarla səmimilik şəraitində keçən görüşlərlə, yeni təməlqoyma və açılış mərasimləri ilə yadda qalıb. Prezident İlham Əliyev səfər çərçivəsində Xocalı rayonunun Ballıca kənd sakinləri ilə baş tutan görüşdəki çıxışında işğaldan azad edilmiş ərazilərdə nəzərdə tutulan layihələrin uğurla həyata keçirilməsindən məmnunluğunu bildirərək vurğulayıb: “Keçmiş köçkünlər indi demək olar ki, hər ay hissə-hissə, qrup-qrup öz dədə-baba torpaqlarına qayıdırlar. Böyük Qayıdış Proqramı icra edilir. Demək olar ki, vaxtilə işğal altında olan bütün torpaqlar bərpa edilir”.

## Hər yerdə quruculuq, bərpa işləri aparılır

Qeyd edək ki, cari ildə işğaldan azad edilmiş ərazilərin bərpasına dövlət büdcəsindən təxminən 4 milyard manat vəsait ayrılması nəzərdə tutulub. Ancaq bu vəsaitin artırılması ehtimalı da kifayət qədər böyükdür.

## Ağdam sıfırdan qurulur

Erməni vandalizminin bütün cəhətlərini Ağdamın timsalında görmək mümkündür. Zamanında Qarabağın incisi sayılan Ağdam işğal illərində xarabalıqlar şəhərinə çevrilib.

İndi isə Ağdamda fərqli bir mənzərə müşahidə edilir. Burada xarabalıqların əhatəsində milli memarlıq üslubunda müasir şəhər tikilir. Prezident İlham Əliyevin Ballıca kənd sakini Məmməd Quliyevin evində yaradılan şəraitlə tanış olarkən bildirdiyi kimi, Ağdam şəhəri sıfırdan inşa edilir və gözəl şəhər olacaq. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də “Ağdam Residence”, həmçinin 2-ci yaşayış kompleksində aparılan tikinti işləri ilə tanış olublar. Ümumi sahəsi 1,55 hektar olan “Ağdam Residence”də ilk mərhələdə 6 yaşayış binası inşa edilib. Kompleksdəki binalar 6 mərtəbəlidir. Kompleksin təməli 2022-ci il fevralın 13-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub. 1268 mənzilli 2-ci yaşayış kompleksinin ümumi sahəsi 14 hektara yaxındır. Yaşayış kompleksi Ağdamın mərkəzi küçəsində, şəhərin təsdiq edilmiş Baş Planına uyğun salınıb.

Şəhərdə həmçinin mədəni və sosial təyinatlı obyektlərin inşası da sürətlə davam etdirilir.



## Bərpa olunan 10-cu yaşayış məntəqəsi

Postmüharibə dövründə ərazilər minalardan təmizləndikcə bərpa və quruculuq işlərinin miqyası da genişlənir. Bir zamanlar separatçıların yuvasına çevrilmiş Xankəndidə indi bayrağımızın əzəmətlə dalğalanmasının və quruculuq-bərpa işlərinin bu tarixi Azərbaycan şəhərini də əhatə etməsinin xüsusi bir özəlliyi var. Prezident İlham Əliyev səfər çərçivəsində Xankəndi şəhərində əsaslı təmir və bərpadan sonra “Bulud” hotelinin açılışında iştirak edib, Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan Xankəndi tikiş fabrikinin fəaliyyəti ilə tanış olub, Zəfər parkının təməlqoyma mərasiminə qatılıb. İşğaldan azad olunmuş ərazilərə son səfəri zamanı Xankəndidə də olduğunu məmnunluq hissi ilə diqqətə çatdıran dövlətimizin başçısı vurğulayıb: “...Orada da gözəl işlər görülür, yeni iş yerləri, yeni müəssisələr yaradılır. Mənim Sərəncamımla Qarabağ Universiteti yaradılmışdır. Orada mindən çox tələbə oxuyur. Orta məktəblər, tibb məntəqələri inşa olunur. Yəni həyat üçün nə lazımdırsa, hər şeyi edirik, həm şəhərləri, həm də kəndləri bərpa edirik”.

Səfər çərçivəsidə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmçinin Əsgəran qala-kompleksinin konsepsiya layihəsi ilə tanış olublar. Bildirildiyi kimi, Əsgəran qala-kompleksinin dizayn layihəsi “Mədəni və təbii irs”, “İnfrastruktur və xidmətlər”, “Əyləncə və istirahət”, “Marketinq və təşviqat” olmaqla, 4 istiqaməti əhatə edən konsept üzrə hazırlanıb.

Zamanında bir gecənin içində amansız soyqırımına məruz qalan Xocalı da dirçəlir. Xocalı soyqırımı xalqımızın qan yaddaşına yazılıb. Bu yaşayış məntəqəsinin bərpası və məskunlaşdırılması bizim üçün xüsusi məna daşıyır. Ballıca kəndi Xocalının bərpasına yaxşı nümunədir. “Ballıca kəndinin də bərpası artıq son mərhələdədir. Mənə verilən məlumata görə, 137 ev artıq bərpa edilib və 60-a yaxın ev hələ bərpa olunacaq. Ballıcada artıq 460 keçmiş köçkün yerləşib. Evləri bərpa etmişik, kənd təsərrüfatı ilə məşğul olmaq üçün imkanlar yaxşıdır, torpaq münbitdir, hava da təmizdir. Bütün Qarabağ bölgəsi, Şərqi Zəngəzur bölgəsi dirçəlir və hər gün biz bunu əyani şəkildə görürük”, - deyə Prezident İlham Əliyev bildirib.

*Mübariz ABDULLAYEV*

# Bakı Bəyannaməsi qəbul olundu

## Növbəti il Asiya Parlament Assambleyasına Bəhreyn Krallığı sədrlik edəcək

Fevralın 20-də Milli Məclisdə Asiya Parlament Assambleyasının (APA) “Asiyada çoxtərəfli əməkdaşlığın gücləndirilməsində parlament diplomatiyasının rolu” mövzusuna həsr edilmiş 15-ci plenar sessiyasının bağlanış mərasimi keçirilib. Milli Məclisin APA-da parlament nümayəndə heyətinin rəhbəri, qurumun İcraedici Şurasının sədri Rizvan Nəbiyev sessiya ərzində görülən işlərdən bəhs edib. O, 15-ci plenar sessiya çərçivəsində qurumun Sosial və mədəni məsələlər, Büdcə və planlaşdırma, İqtisadiyyat və davamlı inkişaf, Siyasi məsələlər üzrə daimi komitələrinin iclaslarının keçirildiyini söyləyib. Qeyd edilib ki, komitələrin gündəliklərinə daxil edilən məsələlər, o cümlədən müvafiq qətnamə layihələri, yekun hesabatlar nəzərdən keçirilib.

Sonra Rizvan Nəbiyev Asiya Parlament Assambleyasının İcraedici Şurasında baxılan məsələlər barədə məlumat verib. O bildirib ki, 2025-ci il üçün Rusiyanın namizədliyi APA-nın vitse-prezidenti və Sosial və mədəni məsələlər üzrə daimi komitənin sədri, Qətər Dövlətinin namizədliyi APA-nın vitse-prezidenti və Büdcə və planlaşdırma üzrə daimi komitənin sədri, Bəhreyn Krallığının namizədliyi APA-nın vitse-prezidenti və İqtisadiyyat və davamlı inkişaf üzrə daimi komitənin sədri, İran İslam Respublikasının namizədliyi APA-nın vitse-prezident və Siyasi məsələlər üzrə daimi komitənin sədri kimi təqdim edilib. Tədbir iştirakçıları irəli sürülən namizədlikləri dəstəkləyiblər.

Sonra Asiya Parlament Assambleyasının Baş katibi Mohammad Reza Majidi çıxış edərək, Azərbaycana APA-ya sədrlik etdiyi dövrdə yüksək səviyyədə təşkilatçılığa görə təşəkkürünü ifadə edib.

Növbəti məsələyə dair məlumatında Rizvan Nəbiyev bildirib ki, əldə edilmiş razılığa əsasən, Bəhreyn Krallığı 2026-cı il üçün, İran İslam Respublikası isə 2027-2028-ci illərdə APA-nın sədrliyini öz üzərinə götürür. Bununla yanaşı, İran İslam Respublikası 2026-cı ildə APA-nın vitse-prezidenti və İqtisadiyyat və davamlı inkişaf üzrə daimi komitənin sədri vəzifələrini icra edəcək. Bu məsələlərlə bağlı qərar da təsdiq edilib.




Tədbirdə Bəhreyn Krallığının və İran İslam Respublikasının nümayəndələri çıxış edərək, bu ölkələrin namizədliklərinə verilən dəstəyə görə minnətdarlıqlarını bildiriblər, APA-nın Asiya dövlətlərini birləşdirən qurum kimi regionda davamlı inkişafa, əməkdaşlığın möhkəmlənməsinə, sülhə, sabitliyə verdiyi töhfələrin əhəmiyyətini qeyd ediblər, Azərbaycanın sədrliyi dövründə APA-nın fəaliyyətində əldə edilən nailiyyətləri təqdir ediblər.

Sonra APA-nın Nizamnaməsinə və Reqlamentinə qurumun İcraedici Şurasının tövsiyə etdiyi dəyişikliklər nəzərdən keçirilib və təsdiq olunub.

Yekunda Asiya Parlament Assambleyasının Baş katibi Mohammad Reza Majidi Azərbaycanın sədrliyi ilə APA-nın 15-ci plenar sessiyasının uğurla keçdiyini, vacib qərarların qəbul edildiyini və bunun qurumun prinsiplərinə uyğun olduğunu söyləyib. O, Bakıdakı tədbirdə iştirak edən bütün nümayəndə heyətlərinə göstərdikləri fəallığa görə təşəkkür edib. Baş katib, həmçinin, parlamentlərdə təmsil olunan gənc nümayəndələrin fəaliyyətini, onların ümumi işə verdiyi töhfələri yüksək dəyərləndirib.

Mohammad Reza Majidi Milli Məclisin spikeri Sahibə Qafarovaya APA-nın 15-ci plenar sessiyasının yüksək səviyyədə təşkilinə və səmərəli müzakirələrə görə bir daha öz minnətdarlığını bildirib.



Sonra Rizvan Nəbiyev APA-nın 15-ci plenar sessiyasında Bakı Bəyannaməsinin və müxtəlif mövzularda 29 qətnamənin qəbul edildiyini diqqətə çatdırıb. O, nümayəndə heyətlərinə APA-nın plenar sessiyasının və daimi komitələrinin işində aktiv fəaliyyətlərinə görə təşəkkür edib. APA-nın bundan sonra da əməkdaşlığın gücləndirilməsi və birgə məqsədlər naminə mühüm platforma rolunu oynayacağı ilə bağlı əminlik ifadə olunub.

Xatırladaq ki, fevralın 19-da Asiya Parlament Assambleyasının Büdcə və Planlaşdırma üzrə Daimi Komitəsinin iclası da keçirilib. İclasda Assambleyanın büdcə və planlaşdırma istiqamətində fəaliyyətinin təkmilləşdirilməsi, maliyyə resurslarının idarə olunması və inkişaf strategiyalarının müəyyən edilməsi müzakirə olunub. Sonra Qətər parlamentinin komitə sədri Ahmet Al Hitmi katibliyin hesabatını təqdim edib. Hesabatda Assambleyanın son dövrdə maliyyə idarəçiliyi, həyata keçirilmiş layihələri və gələcək planları ilə bağlı ətraflı məlumat verilib. Həmçinin Assambleyanın maliyyə dayanıqlığının artırılması və üzv dövlətlərin töhfələrinin optimallaşdırılması ilə bağlı təkliflər irəli sürülüb.

İclasda APA İcraiyyə Şurası tərəfindən tövsiyə olunan qətnamə layihəsi də nəzərdən keçirilib. Qətnamənin əsas məqamları Assambleyanın maliyyə idarəetmə mexanizmlərinin səmərəli qurulması və üzv dövlətlərin daha aktiv iştirakının təmin edilməsi ilə bağlı olub.

APA-nın büdcə və planlaşdırma siyasətinin daha da gücləndirilməsi məqsədilə irəli sürülən təkliflər üzv dövlətlər tərəfindən dəstəklənib. Beləliklə, Asiya Parlament Assambleyasının iclasında 1 milyon ABŞ dolları dəyərində olan büdcəsi qəbul edilib. Hər bir üzv ölkə büdcənin formalaşdırılması üçün minimun 22 min ABŞ dollarından maksimum 50 min ABŞ dollarınadək vəsait ödəyəcək.

Qeyd edək ki, Asiya Parlament Assambleyası Asiya ölkələrinin qanunverici orqanlarını birləşdirən və regional əməkdaşlığı gücləndirməyi hədəfləyən parlament təşkilatıdır. Azərbaycanın bu qurumda aktiv iştirak etməsi ölkənin beynəlxalq parlament diplomatiyasına verdiyi töhfənin göstəricisidir.

*Nardar BAYRAMLI*

# MİLLİ MƏNLİYİN AÇARI, GƏLƏCƏK NƏSİLLƏRƏ ƏMANƏT - ANA DİLİMİZ

**Dil milli mənliyin açarıdır, milli tərbiyə vasitəsidir.**
**Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir.**
**Heydər Əliyev**

Dil hər bir millətin irsini qoruyan, inkişaf etdirən ən güclü vasitədir. Ana dili insanın dünyagörüşünün genişlənməsində, mükəmməl biliklərə yiyələnməsində, öz soydaşları ilə daha rahat ünsiyyət qurmasında mühüm rol oynayır. Bu bir həqiqətdir ki, hər bir dil özündə bir tarix yaşadır. Doğma Azərbaycan dili də bizim keçmişimiz, bu günümüz və sabahımızdır.

Bizim üçün müqəddəs olan Ana dilimiz qədim və zəngin bir dildir. Bu dil, layla dili, poeziya dili, mahnı dilidir. Türk dilləri ailəsinin oğuz dili qrupuna aid olan ana dilimiz - Azərbaycan dilinin ifadə zənginliyi, axıcı olması, sadəliyi onu dünyadakı ən şirin dillərdən biri kimi tanıtmışdır.

2000-ci ildən etibarən 21 fevral bütün dünyada olduğu kimi Azərbaycanda da "Beynəlxalq Ana Dili Günü" qeyd olunur.

Müstəqil Azərbaycan dövlətinin qurucusu, Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə elm və təhsilin inkişafına xüsusi qayğı ilə yanaşaraq, ilk növbədə, xalqın intelektual gələcəyini düşünmüşdür. Heydər Əliyev dühasının böyüklüyü də məhz ondadır ki, o, bütün fəaliyyəti boyu bu sahələrə diqqət və qayğısını əsirgəməmiş, cəmiyyətdə yüksək bilikli, intelektual və elitar təbəqənin formalaşmasına çalışmışdır.

Ana dilinin inkişafı, onun saflığının qorunması, Azərbaycan dilinin dövlət dili olaraq dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilməsi, eləcə də dünyanın böyük dövlətlərinin, beynəlxalq təşkilatların kürsülərində qürurla səslənməsi məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

"Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm" -deyən Ulu Öndər həm də öz mükəmməl natiqlik bacarığı ilə də seçilirdi. Heydər Əliyevin nitqindəki səlislik, ardıcıllıq, məntiqilik xüsusilə diqqəti cəlb edirdi. Dili "milli mənliyin açarı, milli tərbiyə vasitəsi" kimi dəyərləndirən Heydər Əliyevin yeritdiyi siyasət bu gün onun layiqli davamçısı olan Prezidentimiz İlham Əliyev tərəfindən çox böyük məsuliyyətlə davam etdirilir.

"Azərbaycan dili o qədər zəngin dildir ki, heç bir xarici kəlməyə ehtiyac yoxdur",

"Azərbaycan xalqının formalaşmasında, müstəqil Azərbaycanın formalaşmasında ana dilimiz-Azərbaycan dili müstəsna rol oynamışdır. Biz elə etməliyik ki, dilimizin saflığını daim qoruyaq. Bu məsələyə çox ciddi diqqət göstərilməlidir",

"Ana dilimiz bizim toxunulmaz sərvətimizdir. Ana dilimizə hörmət və qayğı daim olmalıdır. Biz ana dilimizi xarici təsirlərdən qorumalıyıq" - Bu dəyərli sözlər Prezident İlham Əliyevə məxsusdur.

Ana dilimizi gələcək nəsillərə əmanət kimi qorumaq, yaşatmaq bizim müqəddəs borcumuzdur! Dilimizi qoruyub, inkişaf etdirib yaşatmaqla özümüzü, ruhumuzu yaşatmış olarıq.

Biz gənc nəsil olaraq çalışmalıyıq ki, dilimizin gözəlliyini qoruyaraq onu inkişaf etdirək. Dilimizi inkişaf etdirib yaşatsaq, özümüzü, milli mənliyimizi, eyni zamanda, tariximizi yaşatmış olarıq.

Xalq şairimiz Bəxtiyar Vahabzadənin "Ana dili" şeirində dediyi kimi, "Bu dil bizim ruhumuz, eşqimiz, canımızdır!"

*Bu dil bizim ruhumuz, eşqimiz, canımızdır,*
*Bu dil bir-birimizlə əhdi-peymanımızdır.*
*Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,*
*Bu dil əcdadımızın bizə miras verdiyi*
*Qiymətli xəzinədir...onu gözlərimiz tək*
*Qoruyub, nəsillərə biz də hədiyyə verək.*




*Səndə mənim xalqımın qəhrəmanlıqla dolu*
*Tarixi varaqlanır,*
*Səndə neçə min illik mənim mədəniyyətim,*
*Şan- şöhrətim saxlanır.*
*Mənim adım-sanımsan,*
*Namusum, vicdanımsan!*

**Nuranə Çələbiyeva,**
**AMEA M. Füzuli adına**
**Əlyazmalar İnstitutu,**
**"Ərəbdilli əlyazmaların tədqiqi" şöbəsi**

# Gələcək hədəflər bəllidir

## Azərbaycan-Türkiyə media əməkdaşlığının 5 ili...

"Azərbaycan və Türkiyə arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumunun 5 ili: Birgə fəaliyyətə baxış, gələcək hədəflər" mövzusunda dəyirmi masa tədbiri keçirilib. Tədbir fevralın 19-da Sosial Tədqiqatlar Mərkəzi (STM), Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin Bakı Mətbuat Müşavirliyi və Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə baş tutub.

Türkiyə və Azərbaycan Media Platforması çərçivəsində təşkil olunan tədbirdə iki ölkə arasında media sahəsində əməkdaşlığın cari vəziyyəti, əldə olunan nailiyyətlər və gələcək perspektivlər müzakirə olunub.

Tədbirin açılışında çıxış edən STM-nin İdarə Heyətinin sədri, deputat Zahid Oruc Azərbaycan və Türkiyə arasındakı qardaşlıq əlaqələrinə diqqət çəkib: "Qlobal dəyişikliklər və yeni dünya təhlükəsizliyi arxitekturasının axtarıldığı bir dövrdə Azərbaycan və Türkiyə mediasının bir araya gəlməsi mühüm hadisədir. Qürurlu tarixə malik Azərbaycan-Türkiyə sarsılmaz birliyi mürəkkəb formasiya və quruluşlardan keçərək son 5 ildə yeni zirvələrə yüksəlib. Bunun başlıca səbəbi isə hər iki ölkənin liderləri arasındakı sarsılmaz qardaşlıq münasibətləridir. Düşünürəm ki, növbəti illər ərzində bu münasibətlər özünün ən yüksək zirvəsinə çatacaq".

### Liderlərimizin siyasi iradəsi media əməkdaşlığını gücləndirir

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov qeyd edib ki, Prezident İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın güclü siyasi iradəsi nəticəsində iki ölkə arasında qardaşlıq münasibətləri möhkəmlənib: "Bu münasibətlər regionumuzun inkişafına ciddi töhfə verən intensiv əlaqələr media sahəsi də daxil olmaqla, bütün sahələrə öz dinamik təsirlərini göstərir.

Hər iki ölkənin liderlərinin qarşılıqlı səfərləri dövlətlərimiz arasında əlaqələrin və strateji tərəfdaşlığın inkişaf etdirilməsi baxımından mühüm tarixi hadisədir. Bu səfərlər, habelə səfər çərçivəsində imzalanan sənədlər Azərbaycan və Türkiyə xalqları arasında dostluğun, qardaşlığın əyani təzahürüdür. Bizim ortaq dəyərlərimiz və bir-birini tamamlayan məqsədlərimiz əlaqələrimizi gücləndirməklə yanaşı, cəmiyyətlərimizi informasiya ilə təmin etmək kimi vacib funksiyanı yerinə yetirən yerli medianın fəaliyyətində də canlanma yaradıb. Ölkələrimizin media nümayəndələrinin, subyektlərinin, həmçinin sahə ilə əlaqədar aidiyyəti qurumların daha sıx və peşəkar münasibətlərinin qurulmasına böyük təkan verib".

### Qlobal informasiya məkanına töhfə verən əməkdaşlıq

Ə.İsmayılov bildirib ki, iki ölkə arasındakı strateji münasibətlərin inkişaf dinamikasına uyğun olaraq istər milli media subyektlərimiz, istərsə də aidiyyatı qurumlar xalqlarımızın mənəvi dəyərlərinin təbliğində böyük işlər görür: "Dövlət maraqlarımızın müdafiəsi, o cümlədən informasiya mühitimizi dezinformasiyalardan qorumaq məqsədilə medianın etik prinsipləri əsasında daha peşəkar fəaliyyət göstərmək üçün əzmlə çalışırlar. Anlaşma Memorandumunun 5 illik yubileyini qeyd edərkən, əminəm ki, əməkdaşlığımız gələcək illərdə yeni layihələr və təşəbbüslərlə daha da zənginləşəcək. İki ölkənin media sahəsinə məsul qurumları arasında bilik və təcrübə mübadiləsi, birgə layihələrin həyata keçirilməsi və informasiya təhlükəsizliyinin təmin edilməsi kimi məsələlərdə əməkdaşlıq imkanları daha da artırılacaq".



### Hər iki ölkənin sevinci və kədəri birdir

Daha sonra çıxış edən Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün Azərbaycan və Türkiyə arasında olan sıx əməkdaşlıqda hər iki ölkənin dövlət başçılarının güclü liderliyi və bənzəri olmayan qardaşlığının mühüm rol oynadığını deyib: "Dünyada Azərbaycan və Türkiyə kimi sıx əlaqədə olan başqa dövlətlər yoxdur. Hər iki ölkənin sevinci və kədəri birdir. Gələcək illərdə ölkələrimizin media subyektləri və nümayəndələri arasında qardaşlıq əlaqələrinin daha da genişlənəcəyinə inanıram".

Daha sonra tədbirdə media nümayəndələri, həmçinin tədbir çərçivəsində keçirilən panellərdə media orqanlarının və aparıcı media subyektlərinin rəhbərləri çıxış ediblər.

*Yeganə BAYRAMOVA*

# İslamdaxili Dialoq Konfransında...





## QMİ sədri: Bu gün müstəqil Azərbaycanın timsalında məzhəblərarası anlaşma və qardaşlığın nadir nümunəsi yaşanmaqdadır

Bəhreyn Kralı Həməd bin İsa Əl Xəlifənin himayəarlığı ilə fevralın 19-da Bəhreyn krallığının paytaxtı Manamada "Bir ümmət, bir tale" şüarı altında İslamdaxili Dialoq Konfransı öz işinə başlayıb.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Mətbuat Xidmətindən bildirilib ki, Əzhər Əl-Şərif, Bəhreynin İslam Məsələləri üzrə Ali Şurası və Müsəlman Ağsaqqalları Şurasının birgə təşkilatçılığı ilə keçirilən konfransda İslam dünyasının tanınmış sünni və şiə məzhəblərinin üləmaları, mərceyi-təqlidləri, alim və mütəfəkkirləri və İslam dininin görkəmli xadimləri iştirak edirlər.

QMİ sədri, Müsəlman Ağsaqqalları Şurasının üzvü şeyxülislam Allahşükür Paşazadə Bəhreyn Kralı Əlahəzrət Həməd bin İsa Əl Xəlifə ilə konfrans şərəfinə qəbul mərasimində görüşüb. O, görüş zamanı Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və xoş arzularını Krala çatdırıb.

Bəhreyn Konfransının açılış mərasimində Malayziyanın Baş naziri Ənvər İbrahim, Qazaxıstan Parlamenti Senatının sədri Maulen Aşimbayev, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Hüseyn Brahim Taha, Əl-Əzhəri Şərifin Şeyxi, Böyük İmam Əhməd ət-Tayyib, Bəhreynin İslam Məsələləri üzrə Ali Şurasının sədri Əbdül Rəhman bin Məhəmməd bin Rəşid əl-Xəlifə, Müsəlman Ağsaqqallar Şurasının Baş katibi Məhəmməd Əbdülsəlam, İslam Əməkdaşlıq Təşkilatının sabiq Baş katibi Ekmələddin İhsanoğlu, müsəlman dünyasının bir sıra görkəmli din, dövlət və ictimai xadimləri çıxış ediblər.

Müsəlman dünyası və bütövlükdə bəşəriyyətin gələcəyi naminə qarşılıqlı anlaşma mühitində dialoq məramı ilə keçirilən konfransda məruzə ilə çıxış edən şeyxülislam A.Paşazadə islamdaxili həmrəyliyin təmin olunması naminə İslam-İslam dialoqu, məzhəblərarası anlaşma istiqamətində vəsətiyyənin tətbiqi, müqəddəs dinimizin mötədil dəyərlərinə istinad yönündə birgə səylərini yüksək dəyərləndirib.

QMİ sədri Azərbaycanda İslamdaxili dialoqun uğurla qurulduğunu və real müsbət nəticələr verdiyini qürurla vurğulayıb, ölkəmizin məzhəblərarası anlaşma sahəsində örnək təcrübəsi barədə Bəhreyn forumunun iştirakçılarına məlumat verərək deyib: "Vətənim Azərbaycan tarixən müxtəlif məzhəblərin mövcud olduğu ölkədir. Bu gün müstəqil Azərbaycanın timsalında məzhəblərarası anlaşma və qardaşlığın nadir nümunəsi yaşanmaqdadır. Dünyada analoqu olmayan haldır ki, dini mərkəzin fətvasına əsasən vahid təqvim üzrə Azərbaycan məscidlərində azanlar bir vaxtda verilir, məscidlərdə eyni vaxtda birgə namaz qılınır, eyni imama iqtida edilir. Şiələr və sünnilər dini bayram və mərasimlərdə, Məhərrəmlik dönəmində, Aşura təziyələrində bərabər iştirak edir, mübarək Qurban bayramını və Ramazan ayını vahid təqvim üzrə eyni günlərdə keçirirlər. İslam müqəddəslərinin, səhabələrin təhqir edilməsini dövlətimiz nifrət nitqi olaraq qanunla qadağan edib. Bu müdrik dövlətçilik siyasəti xalqımızın Ulu Öndəri Heydər Əliyevin irsidir və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyev islami həmrəylik ideyalarının dünya miqyasında fəal müdafiəçisi və beynəlxalq müstəvidə islamofobiya əleyhinə daim qətiyyətlə çıxış edən siyasi liderdir".

Şeyxülislam Allahşükür Paşazadə tədbir çərçivəsində Əl-Əzhəri Şərifin Şeyxi, Böyük İmam Əhməd ət-Tayyib, İslam Əməkdaşlıq Təşkilatının Baş Katibi Hüseyn Brahim Taha, Bəhreynin İslam Məsələləri üzrə Ali Şurasının sədri Əbdül Rəhman bin Məhəmməd bin Rəşid əl-Xəlifə və digər şəxslər ilə görüşlər keçirib.

# İbtidai istintaq davam etdirilir

Vəzifə səlahiyyətlərindən sui-istifadə edilərək qanunsuz ağac kəsilməsi faktı ilə bağlı başlanmış cinayət işinin ibtidai istintaqı davam etdirilir.



Bu barədə Baş Prokurorluq və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə məlumatında qeyd olunub.

Bildirilib ki, daxil olmuş məlumatlar əsasında Zaqatala rayonu ərazisində ağacların qanunsuz olaraq kəsilməsi faktı ilə bağlı keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 259.2.3-cü (qanunsuz olaraq ağac kəsmə şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaq aparılır.

İlkin istintaq-əməliyyat tədbirləri ilə Zaqatala-Danaçı-Aşağı Çardaxlar avtomobil yolu üzərində yerləşən 1100-dən çox ağacın təhlükəsizlik məqsədi ilə budanması işləri çərçivəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan Qudayev Muhuma Məmmədəli oğlunun başqa şəxsin adından "14 nömrəli Yol İstismarı" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Paşayev Rüstəm Kamal oğlu ilə müqavilə bağlayaraq 15-16 fevral 2025-ci il tarixlərində həmin ərazidə, ümumilikdə, 140 ədəd ağacı qanunvericiliyə zidd formada, 7 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin ekoloji tələblərinə riayət etmədən budayaraq zərər yetirməsinə əsaslı şübhələr müəyyən olunub. Belə ki, sözügedən işlər müvafiq təcrübəyə malik olmayan şəxslər tərəfindən, bir çox ağacların alt yarus budaqları götürülməklə və estetik görünüşü korlanmaqla həyata keçirilib, bu işlərdə aidiyəti nəzarət təşkilatlarının iştirakı təmin edilməyib.

İstintaq zamanı Muhuma Qudayevə məxsus 4 obyektə baxış keçirilərək, budanmış ağacların hissələri aşkar olunub və saxlanca verilib.

Qeyd edilənlərlə əlaqədar "14 nömrəli Yol İstismarı" MMC-nin direktoru Rüstəm Paşayev, 8 saylı "Avtomobil Yollarının Yaşıllaşdırılması" MMC-nin direktoru İlham Namazov, Zaqatala Rayon İcra Hakimiyyəti başçısının Maqov kəndi üzrə inzibati ərazi nümayəndəsi Rəcəb Davudov tutduqları vəzifədən azad edilib, müvafiq nəzarət tədbirlərinin həyata keçirilmədiyinə görə 7 saylı RETSİ-nin rəisi əvəzi Anar Süleymanov və həmin idarənin məsləhətçi-müfəttişi Əfqan Şibiyev vəzifələrinin icrasından kənarlaşdırılıb.

Hazırda Zaqatala rayonu ərazisində baş vermiş digər qanunsuz ağac kəsmə faktlarının müəyyən olunması istiqamətində ibtidai istintaq tədbirləri davam etdirilir. Nəticəsi barədə ictimaiyyətə əlavə məlumatın verilməsi təmin olunacaq.

# Siyasi və sosial fəallıq artarsa...

Hər bir dövlətin inkişafı üçün vətəndaşların siyasi və sosial fəallığı vacib hesab edilir. Belə ki, adətən sosial və siyasi cəhətdən aktiv olan vətəndaşların əksəriyyət təşkil etdiyi ölkələr onu gözləyən təhlükələri də asanlıqla dəf edə bilirlər. Bu mənada, əhalinin sosial və siyasi fəallığının artırılması daim diqqət mərkəzində olmalıdır.

Təsadüfi deyil ki, demokratik prinsiplərin hakim olduğu dövlətlərdə əhalinin siyasi və sosial mədəniyyət səviyyəsi inkişaf edib. Sosial və siyasi mədəniyyətin inkişafı xalq və hakimiyyət münasibətlərinə müsbət təsir göstərir və milli birliyi möhkəmləndirir.

## Dövlət və vətəndaş cəmiyyəti biri-birini tamamlayır



Milli Məclisin İnsan hüquqları komitəsinin üzvü, millət vəkili Elman Nəsirov "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, Azərbaycan cəmiyyəti hər zaman milli dövlətçiliyə, müstəqilliyə, suverenliyin qorunmasına sıx bağlı olub. Deputatın fikrincə, bu gün Azərbaycan xalqının qətiyyəti, ölkə rəhbərliyinin milli maraqlara uyğun siyasəti ölkəmizdə demokratik hüquqi dövlətin qurulmasına səbəb olub: "Azərbaycanda dövlət və vətəndaş cəmiyyəti biri-birini tamamlayır, bir-birindən asılı olur. Yetkin vətəndaş cəmiyyəti olmadan, hüquqi, demokratik dövlət qurmaq mümkün deyil. Çünki məhz azad vətəndaşlar şüurlu insan birgəyaşayışının ən səmərəli formasını yarada bilər. İnkişaf etmiş Qərb ölkələrində vətəndaş cəmiyyətinin və hüquqi dövlətin qarşılıqlı fəaliyyətinin müəyyən mexanizmi mövcuddur.

Bu gün sosial şəbəkələr informasiya xarakteri daşıyır, həm də sosial-mədəni tədbirlərin keçirilməsində mühüm rol oynayır. İnsanların hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı Azərbaycan çox böyük yol qət edib. Bütün bunlar beynəlxalq hesabatlarda da öz əksini tapıb.

Zaman-zaman Konstitusiya və qanunlara dəyişiklik edilir, cəmiyyətdə demokratik dəyərlərin bərqərar olmasına böyük diqqət yetirilir. Onun nəticəsidir ki, hazırda ölkə vətəndaşları dövlətin idarə edilməsində, ayrı-ayrı məsələlərin həllinə təşəbbüs göstərməkdə fəaldırlar. Hesab edirəm ki, bu bir tərəfdən cəmiyyətin mental dəyərləri, onun tarixi, mədəni keyfiyyətlərinin yüksək olması, habelə, bu gün əldə etdiyimiz demokratik, hüquqi, sosial məsələlərin həllini diqqətdə saxlayan bir dövlətimizin olması ilə bağlıdır".

## Vətəndaşlarımız bundan sonra da fəal olacaq!

E.Nəsirov qeyd edib ki, vətəndaşlarımızın sosial, siyasi fəallığının yüksək olmasını seçki proseslərində və digər məsələlərə münasibətdə müşahidə etdik: "Bunu xüsusən də torpaqlarımızın azad edilməsi, Vətən müharibəsində, bir günlük antiterror əməliyyatı zamanı cəmiyyətimizin bir olmasında bir daha gördük. Azərbaycan vətəndaşlarının fəallığı bundan sonra da hər zaman yüksək olacaq".

## Cəmiyyətin siyasi mədəniyyət səviyyəsini aşağı salmağa çalışanlar...

Deputatın sözlərinə görə, zaman-zaman Azərbaycanın inkişafına, dünyada artan nüfuzuna xələl gətirmək niyyətində olan qüvvələr olur: "Həmin qüvvələr insanların mədəni siyasətdən uzaqlaşması üçün var gücü ilə çalışırlar. Xaricdə oturub özlərini "jurnalist", "bloger" adlandıranların vasitəsilə Azərbaycana qarşı kampaniyaya başlayıblar. Aydındır ki, bu, ilk növbədə Azərbaycanın artan nüfuzuna xələl gətirmək məqsədi ilə edilir. Eyni zamanda, belə qüvvələr çalışırlar ki, ölkəmizdə siyasi mədəniyyət səviyyəsini tamamilə aşağı salsınlar. Elə həmin dairələr tərəfindən sosial şəbəkələr üzərində çox böyük anarxiya, xaos bu gün də hökm sürür. Digər tərəfdən, bəzi radikal dindarlar öz çirkin əməllərini Azərbaycanda həyata keçirmək üçün din pərdəsi arxasında gizlənərək siyasi mədəniyyət səviyyəsini aşağı salmağa cəhdlər edirlər. Bütün bunların fonunda biz cəmiyyət olaraq belə şər qüvvələri tamamilə təcrid etməliyik. Onların qarşısını yalnız həmrəyliyimiz, birliyimiz, ölkə başçısının ətrafında sıx birləşməklə almalıyıq. Bununla yanaşı, təhsilin səviyyəsi artırılmalı və ümumi mədəniyyət sahəsində inkişafa nail olunmalıdır. Ümumi mədəniyyət anlayışının düzgün təbliği cəmiyyətdə sosial və siyasi mədəniyyətin inkişafına müsbət təsir göstərə bilər. Vətəndaşların sosial və siyasi fəallığının artırılması üçün də ciddi işlərin görülməsi vacibdir. Belə olan halda Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqlarının qorunması, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi istiqamətində inkişaf daha da sürətlənəcək".

*Yeganə BAYRAMOVA*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığın artırılması" istiqaməti üzrə hazırlanmışdır**

# "Bitcoin" yenidən bahalaşır

## Trampın dəstəyi kriptovalyuta bazarını canlandırıb

Dünyada ən bahalı kriptovalyuta (rəqəmsal pul) olan "Bitcoin"in dəyəri yenidən artmaqdadır. Cari həftə ərzində virtual pul bazarında "Bitcoin"in qiyməti yenidən 100 min dollara yaxınlaşıb. Ötən ilin sonlarında 110 min dollara qədər yüksələn, dekabrın sonlarında isə 90 min dollara qədər ucuzlaşan bu virtual maliyyə alətinin orta birja indeksi hazırda 95-97 min dollar civarında dövr edir. Məşhur "Binance" platformasında "Bitcoin"in dəyəri 97 min dolları da ötüb. Bu tendensiya "Bitcoin"in yaxın günlərdə 110 min dollar həddini də keçəcəyini şərtləndirir.

Ümumiyyətlə, son bir ildə "Bitcoin"in qiyməti 3,5 dəfə bahalaşıb. "Bitcoin"in bahalaşması onun bazar dəyərini və əməliyyatlar üzrə dövriyyəsini də yüksəltməkdədir. Hazırda dövriyyədə olan bu virtual pulların ümumi dəyəri 2 trilyon dollara yaxındır.

## "Rəqəmsal valyuta" bazarı gərginləşir

Ekspertlər "Bitcoin"in qiymət artımının siyasi amillərlə bağlılığını istisna etmir. Prezident Donald Trampın kriptovalyuta tərəfdarı kimi tanınması və ABŞ maliyyə bazarının rəqəmsal valyuta sütunları üzərində inkişafına xüsusi meyl etməsi həm fiziki, həm də psixoloji olaraq bazarı yenidən canlandırıb.Trampın yanvarın sonlarında "bizim kriptolarla bağlı əla fikirlərimiz var, yeni valyuta sıçrayışları ilə bazarlarda liderliyimizi olmağımızı istəyirik" açıqlamasından sonra "Bitcoin" kriptovalyutasının qiymət enişi əks-istiqamətdə hərəkət edib. Ötən ay ABŞ-ın yeni iqtisadi komandasının kriptovalyuta sektorunun dayanıqlılığını gücləndirən yeni hüquqi-iqtisadi mühitin yaratması və fond bazarına əlavə stimullar verməsi də virtual pul alətlərinin indeks göstəricilərini yaxşılaşdırıb. Nəticədə kriptovalyuta alışlarının həcmi 74 milyon dollara yüksəlib.

Amerikanın yeni hökumətində də virtual valyuta tərəfdarlarının sayı çoxdur. Xüsusilə də Qiymətli Kağızlar və Birjalar Komissiyasına (SEC) təyin edilən yeni rəhbər rəqəmsal aktivlər üzrə peşəkar kadrlardandır. Bütün bunlar "Bitcoin"in ənənəvi maliyyə sistemində artan rolunu göstərir və "rəqəmsal qızıl" kimi potensial bazar payını artıracağını vəd edir.

## Qiymət 250 min dollara yüksələ bilər

Beynəlxalq blokçeyn texnologiyaları üzrə mütəxəssislər virtual pulun ilin sonuna qədər daha da bahalaşacağını fərz edir, illik artım faizinin 130-150 faizə çatacağını proqnozlaşdırırlar. "Fundstrat" tədqiqat şirkətinin rəhbəri Tom Leen hesab edir ki, 2025-ci ilin sonuna qədər "Bitcoin"in qiyməti 250 min dollara qədər yüksələcək. Onun fikrincə, müxtəlif aylarda və situasiyalarda bu pulun bazarında dəyəri müvəqqəti olaraq azala bilər, bu cür azalmalar rəqəmsal aktivlərdə əhəmiyyətli hadisələrdən əvvəl baş verən adi proseslərdən biridir. Məsələn, 2024-cü ilin dekabrında 106 min dollardan 90 min dollara qədər ucuzlaşan "Bitcoin" yanvarın ortalarında yenidən 100 min civarını ötüb. Ona görə də, tez-tez qiymət dəyişikliyinə baxmayaraq, virtual valyutanın maksimuma çatacağı gözlənilləndir.




## Azərbaycanda kriptovalyutalar riskli hesab edilir

Azərbaycanda kriptovalyutalara monetar baxış konservativdir, blokçeyn texnologiyalarından istifadəyə müsbət yanaşılsa da, kriptovalyuta sektoru yüksək riskli investisiya aktivləri olduğundan onun maliyyə sektorunda tətbiqi təhlükəli sayılır. Bu sahədə hüquqi infrastrukturun olmaması belə sərt xarici şoklar yarada, daxili valyuta bazarında sabitlik pozula bilər. Eyni zamanda, hazırda ölkəmizdə kriptovalyutaların onlayn alışı və satışı halları mövcud olmasına baxmayaraq, bu risk alətlərinin tənzimlənməsi üçün qəti addımların atılması da aktualdır. Mərkəzi Bank bu sahədə tənzimlənmənin aparılması üçün müxtəlif ssenarilər işləyir və öz strategiyası çərçivəsində bu istiqamətdə tədbirlər görmək niyyətindədir.

Bundan başqa, kriptovalyutanın kəskin qiymət sıçrayışları valyuta seqmentində də narahatlıqlar yaradır. Avropa və Asiya ölkələrinin bəzilərində milli valyutalar dəyər itirməkdə davam edir. Ona görə də, "Bitcoin"lərə inteqrasiya indiki halda ölkəmizin monetar sektoru üçün də məqsədəuyğun deyil.

*ELBRUS*

# Sürətli, etibarlı və daha aşağı komissiya ilə...

## E- pul və ödəniş təşkilatları "SWIFT"ə qoşulur

Mərkəzi Bankda (MB) "SWIFT" təşkilatının nümayəndə heyəti ilə kommersiya banklarının və digər maliyyə qurumlarının nümayəndələrindən ibarət birgə görüşü keçirilib. Görüşdə "SWIFT"in həyata keçirdiyi proqramlar və qarşıda duran strateji hədəflər, o cümlədən "G20" ölkələrinin transsərhəd ödənişləri üzrə qarşıya qoyulmuş məqsədlər barədə müzakirələr aparılıb. MB-nin sədr müavini Vüsal Xəlilov ölkəmizdə dayanıqlı ödəniş sistemləri infrastrukturunun qurulduğunu vurğulayaraq bu istiqamətdə nəzərdə tutulan prioritetlərdən danışıb. Qeyd edib ki, Azərbaycanın maliyyə institutları ilə sıx əməkdaşlığının artırılması əsas strateji məqsədlərdən biridir. Bu prosesdə banklarla yanaşı, elektron pul təşkilatlarının da rolunun artırılması nəzərdə tutulur. "2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası"nda əks etdirilmiş əsas hədəflərdən biri elektron pul və ödəniş təşkilatlarının "SWIFT" şəbəkəsinə qoşulmasıdır.

## "SWIFT"lə pul köçürmələri və maliyyə mübadiləsi təmin ediləcək

Qeyd edək ki, "SWIFT" sistemi məlumat mübadiləsini təmin edən və ödənişləri həyata keçirən banklararası sistemə nəzarət edən beynəlxalq təşkilatdır. Hazırda dünyada bir neçə beynəlxalq banklararası sistem mövcud olsa da, "SWIFT" onların sırasında ən geniş yayılmış institutdur.




Bu sistem vasitəsilə ödənişləri sürətli, etibarlı və nisbətdən aşağı komissiya ilə köçürmək imkanları mövcuddur və daha sərfəlidir. "SWIFTNet" şəbəkəsi pul köçürmələri və ödənişlərlə yanaşı, qiymətli kağızların mübadiləsini təchiz edən ən təhlükəsiz mübadilə kanalıdır. Yeri gəlmişkən, "Visa" və ya "Mastercard" kimi ödəniş sistemlərindən fərqli olaraq, "SWIFT" yalnız banklararası səviyyədə istifadə olunur.

Azərbaycanda fəaliyyət göstərən elektron pul (e-pul) təşkilatlarının "SWIFT"-ə qoşulması beynəlxalq ödəniş təchizat xidmətində yer alması və dünya maliyyə sisteminə çıxışlarının təmin olunması deməkdir. Hazırda sayı təxminən 10-a çatan e-pul təşkilatları rəqəmsal ödəniş bazarlarında daim yeni alətlərin tətbiqinə çalışır, vətəndaşların bank kanalları ilə yanaşı, bu sistem üzərində tez və asan əməliyyatlar aparmasını təmin etməklə, fiziki yüklənmələri aradan qaldırır, alternativ çıxış imkanları yaradır. Bu baxımdan, e-pul təşkilatlarının "SWIFT" şəbəkəsinə qoşulması maliyyə sektorunda müştərilərin xarici ölkələrlə köçürmələr və maliyyə mübadiləsinin aparılmasında işini asanlaşdıracaq.

## "Fintex" üçün yeni imkanlar

E-pul təşkilatlarının "SWIFT" şəbəkəsinə qoşulması "fintex" alətlərinin də tətbiqinin genişlənməsində mühüm rol oynayacaq. Bu əməkdaşlıq maliyyə sektorunda "fintex" sahəsinin inkişafının önəmli göstəricilərindən biri olmaqla həmin sahənin inkişafında yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Hazırda ölkəmizdə "fintex" üçün infrastruktur qurulub, maliyyə sistemi "Elekton hökumət" platformasına tam inteqrasiya olunub, "Asan imza" və "Sima imza" ilə bütün rəqəmsal maliyyə əməliyyatlarını internet üzərindən həyata keçirmək imkanları mövcuddur. Rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı" çərçivəsində ölkədə rəqəmsal xidmətlərin əhatə dairəsinin genişləndirilməsi, "müştəri-bank" münasibətlərinin innovativ texnologiyalar platformasında quraraq daha təhlükəsiz və operativ elektron xidmətlərin son müştəriyə çatdırılması istiqamətində zəruri addımlar atılıb. Ən son rəqəmsal alətlər bank sisteminə inteqrasiya olunub. Son 5 ildə bankları müasir maliyyə texnologiyalarının tətbiqinə 300 milyon manatdan artıq sərmayələri də məhz bu arxitekturanın möhkəmlənməsinə imkan verib. Mərkəzi Bank tərəfindən müasir ödəniş həllərini ehtiva edən Ani Ödənişlər Sistemi və blokçeyn əsaslı Rəqəmsal İdentifikasiya Sistemi yaradıb, Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlıq şərçivəsində real şəraitdə yeni "fintex" məhsul və xidmətlərini sınaqdan keçirməyə imkan verə biləcək xüsusi tənzimləyici sistem hazır vəziyyətə gətirilib. Pilot olaraq fiziki və hüquqi şəxslər üçün məsafədən bank hesablarının açılması funksionallığı tam olaraq rəqəmsallaşdırılıb.

Beləliklə, "SWIFT" proqramlarında fəal rol almaqla, Azərbaycanın ödəniş təşkilatlarının beynəlxalq maliyyə ekosisteminə inteqrasiyasını daha da möhkəmləndirəcək.

*E.CƏFƏRLİ*

# Cəbhədə və masada...

## Rusiyanın üstünlüyü artır

### Putin Ukraynanın danışıqlar prosesində iştirakının tərəfdarıdır

ABŞ Prezidenti Donald Trampın Ukraynada müharibənin dayandırılması üçün atdığı ilk addım Rusiya və Ukraynanın dövlət başçıları ilə telefon danışığı oldu. Ardınca isə fevralın 18-də Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində ABŞ-Rusiya nümayəndə heyətlərinin görüşü keçirildi. Moskvanı danışıqlarda xarici işlər naziri Sergey Lavrov və Rusiya prezidentinin köməkçisi Yuri Uşakov, Vaşinqtonu isə milli təhlükəsizlik üzrə müşavir Mayk Uolts, Dövlət katibi Marko Rubio və ABŞ liderinin Yaxın Şərq üzrə xüsusi nümayəndəsi Stiven Uitkoff təmsil ediblər.

### Putin Ər-Riyad danışıqlarının nəticəsini yüksək qiymətləndirib



Yeri gəlmişkən, Rusiya Prezidenti Putin Ər-Riyadda keçirilmiş danışıqların nəticəsini yüksək qiymətləndirib. O, jurnalistlərlə söhbəti zamanı Ukrayna münaqişəsinin həlli üçün Rusiya və ABŞ arasında etimad səviyyəsinin artırılmasının vacibliyini vurğulayıb. SHS-3 müqaviləsi ilə bağlı suala cavab verən Vladimir Putin bildirib ki, Rusiya və ABŞ bu müqavilənin müddətinin başa çatması ilə əlaqədar məsələləri həll etməlidir. Rusiya Prezidenti amerikalı həmkarı Trampla görüşə hazır olduğunu da bəyan edib. Qeyd edib ki, bu görüş diqqətlə hazırlanmalıdır. Belə ki, Ukrayna münaqişəsinin nizamlanması da daxil olmaqla, bəzi vacib məsələlər üzərində işləmək lazımdır.

V.Putin onu da bildirib ki, Rusiya və ABŞ Yaxın Şərq, o cümlədən Suriya və Fələstin məsələləri üzrə əməkdaşlığa doğru ilkin addımları atıb. Tərəflər razılaşıblar ki, Ukrayna üzrə danışıqların uğurlu keçməsi üçün təkcə görüş keçirmək kifayət deyil, vacib məsələlərin həllinə də nail olmaq lazımdır. Diqqətçəkən məqamlardan biri də odur ki, Putin danışıqlar prosesinin həm Rusiyanın, həm də Ukraynanın iştirakı ilə baş tutacağını deyib. Putin əlavə edib ki, Rusiya Ukrayna üzrə danışıqlar masasına oturmağa hazırdır, lakin orada həm Moskva, həm də Kiyev iştirak etməlidir. Onun sözlərinə görə, heç kim Ukraynanı bu prosesdən kənarda qoymur. Putin ABŞ prezidenti Donald Trampın telefon danışığı zamanı bunları söylədiyini bildirib. Qeyd edib ki, danışıqlar Moskva və Kiyevin iştirakı ilə baş tutacaq və heç kim Ukraynanı bu prosesdən kənar qoymur: "Mən bunu təsdiqləyə bilərəm".

### Ukrayna nə qədər müqavimət göstərə biləcək?

Halbuki, rəsmi Kiyev Tramp administrasiyasını Ukraynanın iştirakı olmadan danışıqlara çalışmaqda ittiham edirdi. Məsələ ondadır ki, son günlər Kiyevin müqaviməti fonunda ABŞ rəsmiləri Zelenskini tənqid hədəfinə çeviriblər. Tramp Ukraynada yeni prezident seçkilərinin keçirilməli olduğunu deyib, hətta Zelenskini "diktator" adlandırmaqdan çəkinməyib. Digər tərəfdən, Putin danışıqlar prosesində Ukraynanın iştirak edəcəyini desə də, Zelenski və onun komandasının adını çəkməyib. Çünki rəsmi Moskva Zelenski iqtidarını legitim hesab etmir. Bu baxımdan, Rusiya ümid edir ki, Tramp administrasiyasının təzyiqi ilə Ukrayna prezident seçkilərinə gedə və bu seçkilər nəticəsində Zelenski postu ilə vidalaşa bilər. Lakin Ukraynanın indiki hakimiyyəti hələ bu varianta müqavimət göstərir.

Ukraynanın xarici işlər naziri Andrey Sibiqa da öz "X" hesabında yazıb ki, "heç kim Ukraynanı təslim olmağa məcbur edə bilməz, biz mövcud olmaq haqqımızı müdafiə edəcəyik". Yeri gəlmişkən, fevralın 19-da ABŞ Prezidentinin xüsusi nümayəndəsi Keyt Kelloq Kiyevə səfəri zamanı rəsmi Vaşinqtonun Ukraynanın ərazi bütövlüyünə və suverenliyinə dəstək verməsi haqda heç nə deməyib. "Biz qulaq asacağıq. Təhlükəsizlik zəmanətlərinə ehtiyac olduğunu başa düşürük. Mə-



nim missiyamın bir hissəsi dinləməkdir. Sonra ABŞ-a qayıdacağam və hər şeyi düzgün qiymətləndirmək məqsədilə Prezident Trampla danışacağam",-deyə o vurğulayıb.

### Kiyev ümidini Avropa ölkələrinə bağlasa da...

Digər tərəfdən, gözlənilən danışıqlar prosesi ərəfəsində Rusiya cəbhədə mövqelərini gücləndirir. Belə ki, fevralın 19-da V.Putin Rusiya ordusunun Kursk vilayətində dövlət sərhədini keçərək Ukrayna ərazisinə daxil olduğunu bəyan edib. O, Rusiya ordusunun bütün cəbhə boyu hücum etdiyini də bildirib. Belə bir şəraitdə Ukrayna qarşısındakı dövr üçün çox çətin sınaqla üz-üzə qalmış olur. Kiyevin ümidi Avropa ölkələrindən əlavə dəstək almaq olsa da, Avropa İttifaqı məkanında bu məsələdə ciddi fikir ayrılıqları mövcuddur.

*N. BAYRAMLI*

---

# Ukraynada silahlar sussa...

## Avropanın silah biznesindən əldə olunan gəlirləri enəcək

### Silah biznesindən gəlirlər son illərdə fantastik rəqəmlərə çatıb

3 ili tamam olan Rusiya - Ukrayna müharibəsinin yekunlaşması ilə bağlı danışıqlar qlobal dünyada ikitirəlik yaradıb - bir tərəf, hər bir halda atəşkəsin vacibliyindən danışır, silahların susmasını istəyir. Digər tərəf isə əksinə, müharibənin daha radikal və aqressiv şəkil alması üçün əlindən gələni "əsirgəmir". İlk baxışdan ikinci yanaşma təzadlı görünə bilər, amma "aysberqin" görünməyən tərəfinə gün işığı düşdükdə...

Bəli, qanlı və uzun, yorucu və dağıdıcı müharibələr bəşəriyyət üçün birmənalı mənfi assosasiya yaratmalıdır. Bu döyüşlər vətəndaşların yurd yerlərindən didərgin düşməsi, evlərin dağıdılması, nəhayət, minlərlə, bəlkə də milyonlarla günahsız insanların öldürülməsi ilə nəticələnir. Amma bir də bu döyüşlərdən, susmayan silahlardan, atılan güllələrdən və raketlərdən milyardlarla pul qazananları "düşünək"... Bunu kiçik bir misalın üzərində daha yaxşı "görmək" mümkündür...

### Avropa üçün "son ümid"...

Rusiya-Ukrayna müharibəsinə fərqli baxış sərgiləyən Aİ üzvü olan ölkələrə "nəzər salaq" - Mərkəzi Avropa üçün strateji sahə sayılan kənd təsərrüfatı sahəsi ağır vəziyyətdədir. Demək olar ki, bütün ölkələrin fermerləri açıq etiraz aksiyaları keçirirlər. Ağır sənaye adı kimi ağır günlər yaşayır - Avropanın aparıcı dövlətləri bu səbəbdən bir çox sənaye müəssisələrini bağlamaq və ya başqa ölkələrə köçürmək qərarı veriblər. Yüngül sənayenin vəziyyəti də yaxşı deyil - xüsusilə, Şərqdən Qərbə doğru daha ucuz yüngül sənaye məhsullarının ixracı bu sahənin də çətin günlər keçirdiyini deməyə əsas verir. Digər sahələrdə də vəziyyət analoji haldadır - qeyd edildiyi kimi, artıq üç ildir davam edən Ukrayna-Rusiya müharibəsi fonunda xammal çatışmazlığı yaşayan Avropa özünün "embarqo planı"nın əsirinə çevrilib. Bunun üstünə, 5 il öncə yaşanan pandemiya və enerji böhranını da əlavə etsək, təxmini mənzərə belə olmalıdır: Avropada iqtisadi geriləmə ən yüksək faizlərlə müşayiət edilməlidir. Bu siyahıya günü-gündən artan işsizlik, sosial problemlər, pensiyalarla bağlı çətin durum da əlavə olunarsa... Avropanın iqtisadi vəziyyətinin çətinliyi bütün parametrlər üzrə qarşımızda canlanmalıdır. Amma bunun əksinə olaraq Avropanın bəzi dövlətləri müharibənin əleyhinə çıxır. Səbəb müəmmalıdır...

### Ukrayna ilə "sıçrayış" qazanan silah biznesi...

Kiçik bir araşdırma aparsaq, bunun səbəblərini, başqa sözlə, qeyd olunan "aysberqin görünməyən" üzünü "kəşf etmək" olar. Məsələn, 2022-ci ildə 100 ən böyük silah istehsalçısının satış həcmi 597 milyard dollar təşkil edib ki, bu da tələbatın kəskin artmasına baxmayaraq, 2021-ci illə müqayisədə 3,5 faiz az olub. Tarixə diqqət yetirsək, 2022-ci il Rusiya-Ukrana döyüşlərinin ilkin başlanğıc dövrü idi. Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (SIPRI) qlobal silah ticarəti ilə bağlı hesabatı bütün qaranlıqların üzərinə işıq salır.

2019-cu ildən bəri Fransanın silah ixracı artıb. Son illərdə Fransa müdafiə sənayesi silah ixracatında dünyada ikinci yeri tutur. Son hesablamalara görə, 2019-2023-cü illərdə Fransanın silah satışları Rusiyanı üstələyib. Belə ki, 2014-2018-ci illərlə müqayisədə Fransanın xarici satışları iki dəfə artıb. Əsas silah ixracatçısı olan ölkələr arasında yalnız İtaliyanın daha güclü artım (+86 faiz) nümayiş etdirdiyi qeyd olunur. SIPRI-nin hesabatına əsasən, 2019-2023-cü illərdə Avropaya silah idxalı 94 faiz artıb və son 5 il ərzində Avropanın Amerika tədarükçülərindən asılılığı ən yüksək səviyyəyə çatıb.

Həmin il Rusiya istehsalçılarının satış faizləri enib - 2022-ci il üçün ilk 100-lük siyahısına Rusiyanın iki silah istehsalçısı - "Rostec" (10-cu yer, 16,8 milyard dollar) və Birləşmiş Gəmiqayırma Korporasiyası (36-cı yer, 3,95 milyard dollar) daxil edilib ki, onların ümumi gəlirləri 20,8 milyard dollar təşkil edib. Bu 2021-ci il göstəricisindən 12 faiz aşağı olub.

Hələ o dövrdə SIPRI-nin baş elmi işçisi Nan Tian bildirmişdi: "Ukraynadakı münaqişə ilə bağlı yeni sifarişlərin axını intnsivləşməyə başlayıb ki, bu da bir sıra böyük şirkətlərin, yeni sifarişlər alması ilə nəticələnir". Bu sifarişlərdən əldə edilən gəlirlər isə təbii ki, maliyyə hesabatlarında tam əks olunmurdu.

2022-ci ildə Ukrayna Silahlı Qüvvələrinə təchizat fonunda avropalı silah istehsalçılarının gəlirlərinin artımı da "göz oxşayır". Faiz nisbəti az olsa da, (0,9 faiz) rəqəm böyükdür - 121 milyard dollar. "Ukraynadakı münaqişə sursat və zirehli maşınlara tələbat yaratdı. Bu malların bir çoxunun avropalı istehsalçıların gəlirlərinin artırdığını görürük" - bunu isə Almaniyanın Müdafiə Proqramının əməkdaşı Lorenzo Skarazzato deyib. Adicə Polşanın sürətləndirilmiş hərbi modernləşdirmə proqramı sayəsində silah gəlirləri 14 faiz artdı.

### "Köhnə qitə" "qazanc"ını gizlədir...

Eyni mənzərə 2023-cü ildə də müşahidə olunub. SIPRI-nin 2023 hesabatına görə, dünyanın ən yaxşı 100 silah istehsalçısı 2023-cü ildə 632 milyard dollar (əvvəlki ilin demək olar ki, iki qatını) qazanıb. Gəlir artımı bütün dünyada qeydə alınıb. Sənayenin 100 ən böyük şirkətinin silah satışından və xidmətlərindən əldə etdiyi gəlir 2023-cü ildə əvvəlki ilə nisbətən real ifadədə 4,2 faiz artıb. SIPRI bunun səbəbini də bariz şəkildə ortaya qoyub - gəlirlərin artımı Ukraynada və Yaxın Şərqdə baş verənlərlə birbaşa əlaqəli olub. Düzdür, hələlik 2024-cü illə bağlı statistika açıqlanmasa da, SIPRI-nin Hərbi Xərclər və Silah İstehsalı Proqramının tədqiqatçısı Lorenzo Skarazzatonun proqnozu hər şeyi "deyir": "2023-cü ildə silah gəlirlərində güclü artım oldu və bu, çox güman ki, 2024-cü ildə də davam edib".

Hələlik isə 2023-cü ildəki "gəlirlərə" diqqət yetirək. Dünyanın ən yaxşı 100 silah istehsalçısı siyahısına daxil olan 41 ABŞ şirkəti 317 milyard dollar gəlir əldə edib. Hesabat ilində Avropada yerləşən ilk 100 şirkət sırasına düşmüş (Rusiya istisna olmaqla) 27 şirkətin silah satışından əldə etdiyi ümumi gəlir 133 milyard dollar təşkil edib. Bu, 2022-ci illə müqayisədə 0,2 faiz çoxdur. Bu "təvazökar" rəqəm əslində reallığın gizlədilməsidir - Avropa firmaları 2023-cü ildə daha çox "köhnə müqavilələr" üzərindən iş aparıblar və bu da müvafiq olaraq onların il üzrə gəlirlərinin real sifariş axınını əks etdirmir.

### Fransanın "müştərisi" hara silah daşıyır?

Silah alverinin digər tərəfi olan "idxalçı"ların da siyahısı zəngin və genişdir. Məsələn, Hindistan dünyanın aparıcı silah alıcısı, Fransa isə onun ikinci tədarükçüsüdür. 2019-2023-cü illər arasında Hindistan silahlı qüvvələri tərəfindən xarici istehsalçılardan alınan silahların üçdə biri Fransa mənşəlidir. Bu "müştərinin" haraya silah daşıması isə hər kəsə bəllidir - Hindistan Ermənistanın qeyri-qanuni silahla təmin edən ölkələrdən biridir.

Hindistandan sonra Fransanın ənənəvi silah müştərisi Qətərdir. Ancaq Fransa hələ də ən yaxın müttəfiqlərini, yəni Avropa İttifaqının digər ölkələrini cəlb etmək üçün ciddi-cəhdlə çalışır. Aİ üzvü olan ölkələr arasında Yunanıstan fransız texnikasına daha çox etibar edir. Digər Avropa ölkələri ABŞ istehsalına üstünlük verir və 2019-cu ildən bəri onların idxal etdiyi silahların 55 faizi məhz Amerikadan gəlir.

Hindistan, Qətər, Yunanıstan... Bu üç ölkənin ortaq cəhətləri "Rafale" döyüş təyyarələri sifariş etmələridir. Təkcə "Rafale" 2019-2023-cü illərdə Fransanın silah ixracatının 31 faizini təşkil edib. Fransa müdafiə sənayesinin silah ixracatında dünya ikincisi kimi özünü təsdiqləməsində "Rafale" və onun mərmilərinin satışı xüsusi rola malikdir.

2019-2023-cü illərdə Avropaya digər əsas silah idxalı Asiya, Okeaniya və Yaxın Şərq vasitəsilə həyata keçirilib. ABŞ-dan sonra növbəti ən böyük silah tədarükçüləri isə Almaniya (6,4 faiz) və Fransa (4,6 faiz) olub. Vaşinqtonun 2014-2018 və 2019-2023-cü illər arasında həyata keçirdiyi silah ixracı 17 faiz, Parisin isə eyni dövrdə ixracı 47 faiz artıb. ABŞ dünyada ümumi qlobal silah ixracının 42 faizini təşkil etməklə liderdir. ABŞ 2019-2023-cü illər arasında də tək özü 107 ölkəni təchiz edəcək gücə malik olub ki, bu da hər hansı digər silah ixracatçısının payından daha çoxdur.



Fransanın silah ixracının ən böyük payı, yəni 42 faizi Asiyanın, Okeaniya ölkələrinin, digər 34 faizi isə Yaxın Şərqdəki ölkələrin payına düşüb. SIPRI-nın tədqiqatçısı Katarina Cokiçs deyib ki, Fransa öz ixracı vasitəsilə silah sənayesini artırmaqla irəlidə olmaq üçün güclü, həmçinin sərfəli qlobal tələblərdən istifadə edir. Buna görə də Fransa öz döyüş təyyarələrini Avropadan kənarda satmaqda xüsusilə uğur qazanıb.

### Paris sülhə niyə "çöp uzadır"?

Bəli, mənzərə tam şəkildə aydınlığa qovuşur. Fransanın nə üçün Ər-Riyad "sülh masası"na "çöp uzatmaq" üçün səfərbər olmasının real səbəbləri ortaya çıxır. ABŞ, dolayısı ilə Tramp Ukrayna müharibəsini bitirməklə Avropanın daha bir "çörək yerini" bağlamış olacaq. Onsuz da son 3 ildə Kremllə demək olar ki, bütün körpüləri yandıran Paris silah biznesini də itirmək təhlükəsi yaşayacaq. Bu səbəbdəndir ki, Makron Ukraynada müharibənin yekunlaşmasını istəmir... Hətta havayı silah tədarük etmək bahasına olsa belə...

*Pərviz SADAYOĞLU*

# İkinci cəhd...

## Paris sammitləri heç bir nəticə verməyəcək

Fevralın 19-da Parisdə Ukrayna və Avropanın təhlükəsizliyi ilə bağlı növbəti sammit keçirilib. Xatırladaq ki, bundan əvvəl - fevralın 17-də Parisdə Aİ-nin üzv ölkələri - Almaniya, Fransa, İspaniya, Portuqaliya, İtaliya və Niderlandın dövlət başçıları, o cümlədən Britaniyanın Baş naziri Keir Starmer, Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen və NATO-nun Baş katibi Mark Ruttenin iştirakı ilə nəticəsiz sammit baş tutmuşdu.

"Reuters"in məlumatına görə, fevralın 19-da baş tutan tədbirə bazar ertəsi keçirilən iclasda iştirak etməyən Aİ-nin üzv ölkələri - Litva, Estoniya, Latviya və Çexiya, Yunanıstan, Finlandiya, Rumıniya, İsveç və Belçikanın dövlət başçıları qatılıb. Görüşdə, həmçinin Norveç və Kanadanın rəsmiləri də iştirak edib. Tədbirdə Ukraynanın təhlükəsizliyinin təminatı istiqamətində atılacaq addımlar, o cümlədən Kiyevin NATO-ya üzv olmaq potensialı və Avropanın geniş hərbi-müdafiə strategiyası ətrafında bir çox məsələlər müzakirə olunub.

Parisdə üçüncü sammitin də keçiriləcəyi ehtimal edilir.

### Makronun bəyanatı

Avropa liderlərinin görüşü başa çatdıqdan sonra Fransa Prezidenti Emmanuel Makron görüşün nəticələri ilə bağlı bəyanat səsləndirib. Fransa lideri Avropa ölkələrinin müdafiə xərclərini artırmağa və regional təhlükəsizlik üçün məsuliyyəti öz üzərinə götürməyə hazır olduğunu, eləcə də Ukraynaya dəstəyin sona qədər davam edəcəyini bəyan edib - o, bildirib ki, bu, Fransa dövlətinin başlıca hədəfidir.

"Ukraynaya dəstək əsas prioritet olaraq qalır. Ukraynada davamlı və etibarlı sülh arzu edirik. Biz Ukraynanı dəstəkləyirik və Avropada sülhün və təhlükəsizliyin təmin edilməsi üçün bütün məsuliyyəti öz üzərimizə götürəcəyik. Bu, Fransanın fundamental marağıdır və mən onun qarantıyam".

Makron Aİ-nin ABŞ Prezidenti Donald Trampın Ukraynadakı hərbi münaqişəyə son qoymaq təşəbbüslərini dəstəklədiyini, amma münaqişə sona çatana qədər Ukraynanı heç bir zaman yalnız buraxmayacağını qeyd edib: "Ukrayna müttəfiq olaraq qalmalı və onun maraqlarına hörmət edilməlidir, sülh uzunmüddətli olmalı və etibarlı təminatlarla dəstəklənməlidir və Avropa təhlükəsizliyinə diqqət ön şərt olacaq".



Tramp administrasiyasının qlobal strategiyası, xüsusilə Avropanın təhlükəsizliyinə münasibəti və Rusiya ilə münasibətlərin normallaşmasının tərəfdarı olması Avropada çox ciddi narahatlıq yaradıb. ABŞ-ın Rusiyanın Ukraynada hədəflərinə nail olmasına yol açacağından əndişələnən Avropa ölkələrinin başçıları "qoca qitə"də təhlükəsizliyin təhlükə altına düşücəyindən qorxurlar. Artıq Avropa mediasında belə bir iddialar dolaşır ki, Ukraynada hərbi münaqişə bitəndən sonra Avropada mövcud status-kvo tamamilə dəyişəcək - regionda daha

### Avropa təşviş içərisindədir

əvvəlki kimi sabit vəziyyət hökm sürməyəcək, xüsusilə Avropanın yeni təhlükəsizlik arxitekturasının formalaşmasında birbaşa ABŞ və Rusiya cavabdehlik daşıyacaq - Avropa ölkələrinin mövqeyi nəzərə alınmayacaq. Yaxın gələcəkdə belə bir vəziyyətin baş verəcəyi təqdirdə Aİ-nin mövcudluğunun təhlükə altına düşəcəyi istisna deyil.

### Fiasko qaçılmazdır...

Hazırkı durumda Parisdə Ukraynanın gələcəyi ilə bağlı nə qədər sammit keçirilsə belə, bu, heç bir səmərəli nəticə verməyəcək - Avropa liderləri öz məqsədlərinə və istəklərinə nail ola bilməyəcəklər. Bunu bir neçə amillə izah etmək olar:

- Böyük ehtimalla, Aİ Ukraynada münaqişənin nizamlanması üzrə keçiriləcək danışıqlarda iştirak etməyəcək. Çünki bu, nə Rusiya, nə də ABŞ-ın marağındadır. Həm Vaşinqton, həm də Moskva Aİ-ni güclü geosiyasi aktor hesab etmirlər və regional təhlükəsizlik arxitekturasını yalnız öz maraqları çərçivəsində müəyyən etmək niyyətindədirlər.
- Ukraynada münaqişə bitəndən sonra Avropalı hərbçilərdən ibarət sülhməramlı kontingentin cəbhə xətti boyunca yerləşməsi qeyri-mümkün olacaq. Ona görə ki, Moskva heç bir zaman buna imkan verməyəcək. Vaşinqton da Kremlin bu məsələdə marağını nəzərə alacaq.
- Makron tərəfindən səsləndirilən fikirlər Avropanın bəzi ölkələri tərəfindən narazılıqla qarşılanır - Makron Ukrayna məsələsində ümumi Avropanın yox, yalnız Fransanın maraqları baxımından çıxış edir. Ona görə də Makronun cəhdləri fiaskoya uğrayacaq.
- Yaxın zamanda Almaniya, Fransa, İtaliya və Polşanın maraqlarının toqquşmasına şahidlik edəcəyik.

*Yunis ABDULLAYEV*

# Yolun sonu yaxınlaşır...

## Eks-prezidentlər Paşinyana qarşı birləşir

**Baş nazirin səhvləri sonunu gətirib - çıxış yolu isə sülhü imzalamaqdır**

Son iki ayda baş verənlər, yeni siyasi reallıqların ortaya çıxması bir daha sübut edir ki, vaxt Ermənistanın, xüsusilə baş nazir Nikol Paşinyanın əleyhinə işləyir. 2018-ci ildə məxməri inqilabla hakimiyyətə gələn Paşinyan mühüm çağırışla üz-üzədir. Hətta post-müharibə dövründə Ermənistanda keçirilən parlament seçkiləri zamanı belə hazırkı kritik vəziyyət yaranmamışdı. Artıq Paşinyana qarşı blok sıxlaşır, baş nazir dalana tərəf sıxılır.

### Paşinyan üçün təhlükə...

Son dövrlər bir məsələ diqqəti cəlb edir - "seçici etimadı"ndan narahat olmadığını deyən Paşinyan dəfələrlə növbəti parlament seçkilərinin növbədənkənar baş tutma ehtimalını təkzib edib, cidd-cəhdlə bu seçkilərin gələn il baş tutacağını bildirib. Halbuki, ötən ilin sonuna qədər Paşinyan əlində olan mətbu orqanlar vasitəsilə "seçki sorğuları" keçirir, özünün reytinqini müəyyənləşdirmək üçün fərqli xarici şirkətlərə müraciətlər edirdi. Rusiyadan "ayrılması", Aİ-yə tərəf "irəlilədiyini", ABŞ-ın "orbitinə girdiyini" fəxrlə önə sürürdü və bunu dividend olaraq istifadə edirdi. Amma qısa zamanda vəziyyət dəyişib - Paşinyanın burnundan uzağı görməməsi onun siyasi karyerası üçün mühüm təhlükə formalaşdırıb.

### Aİ oxu daşa dəydi...

Bəli, artıq nə Aİ həmin cəlbediciliyindədir, nə ABŞ həmin həvəsdədir. Trampın hakimiyyətə gəlişi ilə birinci növbədə Bayden dövrünün səhvlərini düzəltməyə start verməsi Paşinyan üçün də ciddi siqnala çevrildi. İkitərəfli xartiyanın cəmisi bir neçə gündən sonra fəaliyyətsiz kağız parçası statusu qazanması, ABŞ-ın Ermənistana diqqət ayırmaması, regionda yeni siyasi mənzərənin yaranması, xüsusilə Türkiyənin proseslərdə önə çıxması Paşinyanın "hesabları" ilə üst-üstə düşmür. Siyasi ambisiyalarını qısamüddətli perspektiv üçün müəyyənləşdirən Paşinyan dilemma qarşısındadır - ya vəzifədən uzaqlaşdırılmasını "seyr etməli", ya növbədənkənar seçkilərə gedərək parlamenti təhvil verməli, ya da... bu haqda bir az sonra.

İndi isə qayıdaq Ermənistandakı daxili ab-havaya. Vurğulandığı kimi, Aİ ilə ABŞ arasında sərin küləklərin əsməsi Ermənistan cəmiyyəti üçün mühüm suallar formalaşdırıb. Aİ üzvlüyünə namizədliklə bağlı proses hələ ilkin mərhələdədir və baş verənlər bu perspektivin nə dərəcədə doğru seçim olması sualını yaradır. Çünki Aİ-nin ard-arda buraxdığı səhvlər, qlobal dəyərlərə arxa çevirməsi faktı Münhen Təhlükəsizlik Konfransında ABŞ tərəfindən üzünə çırpıldı. Konfransa qatılmaq üçün Münhenə gedən Paşinyan isə nəinki istədiklərini əldə edə bilmədi, əksinə, öz caninin hayına qalan Aİ-də masa arxasına oturub müzakirə aparmağa adam tapmadı. Beləliklə, onun Aİ həvəsi başlamamış yekunlaşmağa doğru açıq-aşkar yol alıb...

### Koçaryan situasiyadan istifadə edir...

Təbii ki, baş verənlər Ermənistandan da "izlənir". Paşinyanın söykəndiyi dağlara "qarın yağması" ilə ənənəvi müxalifət üstündəki "tozu" çırpmaq qərarına gəlib. Son günlərdə Ermənistanın keçmiş prezidentlərinin aktivləşməsi isə birbaşa bununla bağlıdır. Məsələn, Ermənistanın sabiq prezidenti Robert Koçaryan mətbuat konfransı keçirərək, ölkənin Aİ-yə üzvlük prosesi ilə bağlı parlamentdə qəbul edilən qanun layihəsini sərt tənqid edib. Sabiq prezidentin bəyanatlarının təhlili göstərir ki, əsas iki istiqamət seçilib: Qarabağ ermənləri kartı və Rusiyadan qopmağın fəsadları. Bununla da Koçaryan həm müəyyən dairələrə, xüsusən də şimala dəstək üçün mesaj göndərib, həm də Qarabağ ermənləri kartından növbəti parlament seçkilərində iştirak edəcəyinə işarə verib. Heç şübhəsiz ki, açıqlamalarında separatçı Samvel Şahramanyanın adını hallandırması, onu təmizə çıxarmaq istəyi də bununla əlaqədardır. Xatırladaq ki, özünü olmayan separatçı qurumun "başçısı" adlandıran Şahramanyan "artsax parlamenti"nin səlahiyyətlərinin uzadılması haqqında "fərman" imzalayıb. Guya fövqəladə vəziyyət zamanı "seçkilər" keçirilə bilmədiyi üçün, "parlamentin" səlahiyyət müddəti də 2025-ci ilin mayında başa çatdığından, ya yeni "seçkilər" keçirilməli, ya "parlament" buraxılmalı, ya da "səlahiyyətlər uzadılmalıdır". Təbii ki, bu da revanşistlər üçün növbəti gülünc spekulyasiyadır.

Bununla yanaşı, Koçaryan Zəngəzur dəhlizi ilə bağlı açıqlamasında da İrana işarə edərək, Tehrana bununla mesaj göndərmiş sayılıb. Ümumi olaraq, keçmiş siyasətçinin çıxışı son günlər baş verən hadisələr fonunda müxalifəti təşkilatlanmaya, Rusiyadan xüsusi dəstək almağa yönəlik sayılır.



Başqa sözlə, Koçaryan yaranan xaosdan tam istifadə etmək arzusunda olduğunu ortaya qoyur. Paşinyana açıq meydan oxuması isə boşuna deyil - Koçaryan yenə də ənənəvi Qarabağ kartına müraciət edir. Bu yolda isə özünün keçmiş terrorçu yol yoldaşını "yanına alır". Təsadüfi deyil ki, Koçaryan müsahibəsində tez-tez Serj Sarkisyana "müraciət" göndərir. Onun sözlərindən belə anlaşılır ki, sabiq prezidentləri birləşdirən məqsəd Paşinyanın hakimiyyətdən uzaqlaşdırılmasıdır. Əlavə olaraq, Koçaryana yaxın media orqanlarında bu açıqlama ilə bağlı verilən şərhlərdən də anlamaq olar ki, Ermənistanın ikinci və üçüncü prezidentləri baş nazirə qarşı gizli ittifaq qu-

### Sarkisyana "göndərişlər"...

rublar və ya yaxın günlərdə bu işlə bağlı ciddi addımlar atılacaq. Bu da o deməkdir ki, Paşinyana qarşı yeni cəbhə yaranır və Robertlə Serjin ittifaqı vəziyyəti bir az da qəlizləşdirə bilər. Paşinyan düşdüyü dalandan xilas olmaq üçün hər iki tərəflə mübarizə aparmaq məcburiyyətində qalacaq. Buraya Paşinyanla düşmən olan erməni kilsəsini də əlavə etsək, yaranan qruplaşmaya qalib gəlmək şansı hazırkı baş nazir üçün mümkünsüz görünür.

### Sülh Paşinyan üçün yeganə xilas yoludur!

Amma çıxış yolu var. Yuxarıda qeyd etdiyimiz tezislərin sonuncusu məhz Paşinyan üçün çıxış yoludur. Paşinyan verdiyi səhv qərarlar üzündən yerlərdə sürünən reytingini qaldırmaq, Ermənistanın yeni dövrdə "memarı" olmaq istəyirsə, Azərbaycanla sülh müqaviləsinin qısa zamanda imzalamalı, Konstitusiya dəyişikliyinə getməli və Zəngəzur dəhlizini aktivləşdirməlidir. Bu üç addım Paşinyanı öz xalqının gözündə yenidən "xilaskara" çevirəcək. Çünki Azərbaycanla sülh müqaviləsinin imzalanması Ermənistanı düşdüyü bu qeyri-müəyyənlikdən xilas edəcək, fərqli regional və qlobal aktorların ətəyindən yapışmağa ehtiyac qalmayacaq, Cənubi Qafqazda olduqca əlverişli və sərfəli iqtisadi mühit formalaşacaq, Azərbaycanın vasitəsilə həm də Ermənistan özünü dövlət kimi təsdiqləyəcək. Əks halda, Paşinyan nəinki öz vəzifəsini itirəcək, ən yaxşı halda gələcək illərini devirdiyi komandanın zindanında keçirməli olacaq. Onsuz da, bölgədə sülh zəruridir. İndiki halda isə sülh həm də Paşinyan üçün yeganə xilas yoludur...

*P.İSMAYILOV*

# Aİ Ermənistanı itirməkdən niyə qorxur?

Son zamanlar Aİ-nin rəsmilərinin Ermənistana mütəmadi səfərləri müşahidə edilməkdədir. Qeyd edək ki, fevralın 13-də Ermənistan parlamentinin iclasında "Ermənistanın Avropa İttifaqına daxil olması prosesinin başlanması haqqında" qanun layihəsi qəbul olunub. Bu qanuna görə, Ermənistanın Aİ-yə üzvlük prosesinin başlanılması üçün ölkədə referendum keçirilə bilər.

Son bir neçə ildə Avropa İttifaqı və onun bəzi üzv ölkələrinin Ermənistanla münasibətlərdə addımları çox mühüm məqamlardan xəbər verir. Ermənistana hər tərəfli dəstəyin verilməsi fonunda bu ölkədə təsir imkanlarını artırmaq və bu ölkə üzərindən regionda öz geostrateji və geosiyasi mövqeyini möhkəmləndirmək Aİ-nin, xüsusilə də Fransanın Cənubi Qafqaz siyasətində əsas hədəfi hesab oluna bilər - 2025-ci ilin ilk günlərindən Aİ rəsmilərinin Ermənistana intensiv səfərləri bunu sübut edir. Keçən il də Aİ-nin və Avropa ölkələrinin rəsmilərinin Ermənistana səfərlərinə şahidlik etmişik - Parisin meri Anna Hidalqo və Fransanın XİN rəhbəri Stefan Sejurnenin İrəvana səfəri xüsusi diqqət çəkib.

Bir məqamı da vurğulayaq ki, artıq Aİ və Ermənistan arasında vizanın sadələşdirilməsi ilə bağlı müzakirələr başlayıb - Ermənistan KİV-lərinin məlumatına görə, fevralın 13-də Aİ-nin ilk ekspert missiyası vizanın liberallaşması məsələsini müzakirə etmək üçün İrəvana gəlib. Xatırladaq ki, Ermənistan Avrasiya İqtisadi İttifaqının üzvdür və Rusiya ilə dərin iqtisadi-ticari münasibətlərə malikdir.

Bəzi ekspertlərin fikrincə, Aİ-Ermənistan münasibətlərində son proseslər məhz rəsmi Parisin təşəbbüsüdür və Ukrayna ətrafında baş verən hadisələr fonunda rəsmi Brüsselin Ermənistana diqqəti artırması bir neçə səbəbdən irəli gəlir.

### Cənubi Qafqazın əhəmiyyəti

Məsələ ilə bağlı politoloq Asif Nərimanlı "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, bu səfərlərin mahiyyətini geosiyasi aspektlər baxımından başa düşmək lazımdır. "Artıq yeni qlobal siyasi nizamın formalaşması istiqamətində addımlar atılır - bu nizamda Avropa İttifaqı da geosiyasi güc mərkəzi olmaq, xüsusilə də Almaniya və Fransa bu prosesə nəzarət etmək niyyətindədir. Paris mərkəzi-qərbi Afrikada mövqelərini itirmək üzrədir - bu itkilərini kompensasiya etmək üçün Cənubi Qafqaza göz dikib. Fransanın hər vəchlə Ermənistanı özünə daha da yaxınlaşdırması və bu ölkəyə hərbi-siyasi dəstək verməsi onu deməyə əsas verir ki, Paris məhz Ermənistan üzərindən Cənubi Qafqazda geosiyasi təsir imkanlarını artırmaq istəyir".

Politoloqun sözlərinə görə, Cənubi Qafqaz Avrasiyada beynəlxalq nəqliyyat qovşağına çevrilib: "Bu baxımdan regionda geosiyasi və geoiqtisadi cəhətdən möhkəmlənmək həm Aİ, həm də Avropanın güc mərkəzləri üçün xüsusi əhəmiyyət kəsb edir".

### Qərb Ermənistanı plasdarma çevirmək istəyir

"Gürcüstan əldən çıxdıqdan sonra Aİ diqqətini Ermənistan üzərində cəmləşdirir. Düzünü desək, Aİ və Avropanın güc mərkəzləri Ermənistanı regionda öz maraqlarını təmin etmək üçün plasdarma çevirirlər. Ancaq nəzərə almalıdırlar ki, Ermənistan üzərində regiona təsir etmək imkanları məhdud olacaq. Çünki Ermənistan blokada şəraitindədir. Amma buna baxmayaraq, Aİ yeganə alternativ seçim kimi Ermənistanı görür", - deyə A.Nərimanlı vurğulayıb.



### Ermənistan da əldən çıxa bilər

Politoloq qeyd edib ki, Rusiya-ABŞ danışıqlarında əldə olunacaq razılaşmalar Ermənistana da təsir göstərə bilər: "Əgər Rusiya Ukraynada öz məqsədlərinə nail olarsa, bu, Moskvanın Cənubi Qafqazda yenidən aktivləşməsinə gətirib çıxaracaq. Bildiyimiz kimi, Ermənistan hər zaman Rusiyanın regionda forpostu olub. Bu baxımdan münasib şərait yaranan kimi Kreml Ermənistanda əvvəlki gücünü qaytarmağa çalışacaq. Moskvanın Ermənistanda özünə bağlı radikal və revanşist qüvvələri Paşinyan hakimiyyətinə qarşı səfərbər edəcəyi istisna deyil". Ardınca A.Nərimanlı əlavə edib ki, Trampın USAİD ilə bağlı qərarından sonra qərbmeyilli qüvvələrin maliyyə imkanları tükənmək üzrədir: "Belə bir halda Paşinyan Rusiyaya yaxınlaşmaq məcburiyyətində ola bilər. Aİ isə Ermənistanın əlindən çıxmasını istəmir. Ona görə də Ermənistana zəruri olan dəstəyi davam etdirəcək".

*Yunis ABDULLAYEV*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressInform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN






# Qeydiyyat başladı...

Ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün qeydiyyat başlayıb. Dövlət İmtahan Mərkəzindən (DİM) verilən məlumata görə, ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün ərizə qəbulunun I mərhələsi 20 fevral-5 mart 2025-ci il tarixləri arasında aparılacaq.

Tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq istəyənlərin qeydiyyatı da 20 fevral-5 mart 2025-ci il tarixləri arasında həyata keçiriləcək.

Qeyd edək ki, ali məktəblərə qəbulun I mərhələsi hesab olunan tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı 2-9 mart 2025-ci il tarixlərində keçiriləcək.

## Bu şəxslər martın 5-dək seçimlərini etməlidirlər

Orta ümumtəhsil müəssisələrinin XI sinfini cari ildə bitirən və buraxılış imtahanında verdikləri xarici dildən fərqli bir xarici dil üzrə imtahan vermək istəyən, həmçinin ali təhsil müəssisələrinə qəbul imtahanını orta məktəbdə təhsil aldığı dildən fərqli dil üzrə vermək istəyən cari ilin məzunları da martın 5-dək ərizələrinə daxil olub müvafiq seçimlərini etməli və 6 aprel tarixində keçiriləcək əlavə imtahanda iştirak etməlidirlər. Bundan əlavə, Azərbaycan və rus dilləri istisna olmaqla tədris digər dillərdə aparılan məktəblərdə təhsil alan və ali təhsil müəssisələrinə qəbul imtahanında iştirak etmək istəyən cari ilin məzunları da martın 5-dək ərizələrinə daxil olub müvafiq seçimlərini etməli və 6 aprel tarixində keçiriləcək əlavə imtahanda iştirak etməlidirlər.

## Ötənilki imtahanın nəticəsi əsas götürülür

2024-cü ildə qəbul imtahanının I mərhələsində (buraxılış imtahanında) iştirak edən abituriyent öz istəyindən asılı olaraq cari ildə keçirilən qəbul imtahanının I mərhələsində iştirak edə və ya etməyə bilər. İştirak etmədiyi halda abituriyentin qəbul imtahanının I mərhələsindəki nəticəsi kimi ötənilki imtahanın nəticəsi əsas götürülür və bu zaman həmin abituriyent üçün ərizənin təsdiqi ödənişsiz olur. Qeyd edək ki, hər iki halda abituriyent müəyyən olunmuş vaxtda elektron ərizəsində müvafiq seçimi etməlidir.

V ixtisas qrupu üzrə ali təhsil müəssisələrinin müsabiqəsində iştirak etmək istəyən abituriyentlər də fevralın 20-dən martın 5-dək qeydiyyatdan keçməlidirlər. Müsabiqədə iştirak ödənişlidir. Abituriyentlər ərizəni təsdiq etmək üçün qəbul imtahanının I mərhələsində iştirak üçün tələb olunan məbləği şəxsi kabinetlərindəki hesablarına əlavə edirlər. Həmin məbləğ ərizə təsdiq olunduqda onların şəxsi kabinetlərindəki hesablarından çıxılır.

2025-ci il martın 2-də Bakı şəhərinin Nərimanov, Sabunçu, Xəzər, Səbail, Nəsimi, Nizami, Abşeron (I hissə), Sumqayıt (I hissə), Gəncə (I hissə), Goranboy, Yevlax, Naftalan, Şəmkir, Gədəbəy, Şirvan, Hacıqabul, Neftçala, Salyan, Göyçay, Ağdaş, Şamaxı, Qobustan, Kürdəmir, Lənkəran, Cəlilabad, Yardımlı, Bərdə, Tərtər, Ağdam, Şəki, Oğuz, Qəbələ, Şabran, Siyəzən, Şabran, Ağdərə (Talış kənd tam orta məktəbi), Xocalı, Xankəndi, Şuşa və Laçında (Şəhər 2 №-li tam orta məktəb, Zabux və Sus kənd tam orta məktəbləri) Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçiriləcək. Martın 2-də tədrisi ingilis və fransız dilində olan məktəblərin şagirdləri də imtahan verirlər.

DİM-dən verilən məlumata görə, şagird imtahana buraxılış vərəqəsini, təhsil müəssisələri isə bütün şagirdlərin imtahana buraxılış vərəqələrini çap edə bilərlər. Şagirdlər iş nömrəsini DİM-in saytından öyrənə bilərlər.

Buraxılış vərəqəsini çap etmək üçün kompüterə "Adobe Reader" proqramı quraşdırılmalıdır və brauzerin "Pop-up blocked" sahəsindən qeyd işarəsi götürülməlidir. Şəxsiyyəti təsdiq edən sənədində şəkli olmayan şagirdlər buraxılış imtahanı üçün təhsil müəssisəsi tərəfindən verilməli olan arayışı DİM-in saytından yükləyə bilərlər.

Şagirdlər imtahana aşağıda qeyd olunan sənədləri gətirməlidirlər:

## DİM müraciət edib

-İmtahana buraxılış vərəqəsi;

- Şəxsiyyəti təsdiq edən sənədin əsli:

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

-Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

Şagirdlər bitirdikləri məktəbin yerləşdiyi yerə uyğun rayonda (şəhərdə) imtahan verirlər.

Keçmiş məcburi köçkün rayonlarının məktəblərində təhsil alan şagirdlər bitirdikləri təhsil müəssisəsinin yerləşdiyi şəhər və rayonların imtahan gününə uyğun tarixdə imtahan verirlər.

Peşə liseylərinin məzunları liseyin yerləşdiyi şəhər və rayonların imtahan gününə uyğun tarixlərdə imtahan verirlər (Sumqayıt və Abşeronda yerləşən peşə liseylərinin məzunları martın 2-də imtahan verəcəklər).

*Yeganə BAYRAMOVA*

---

*İdman*

## Aslan Kərimov: AFFA İcraiyyə Komitəsinin son qərarları çempionatımız üçün ən doğru seçimdir

"Açığı, 2025/2026-cı illər mövsümünün formatı ilə bağlı bir neçə variant var idi. Lakin hesab edirəm ki, AFFA-nın verdiyi yekun qərar çempionatımız üçün ən doğru seçimdir".

Bu sözləri AZƏRTAC-a açıqlamasında AFFA-nın Məşqçilərin maarifləndirmə şöbəsinin müdiri Aslan Kərimov milli assosiasiyanın İcraiyyə Komitəsinin iclasında qəbul olunmuş qərarlar barədə danışarkən deyib.

Veteran futbolçu Azərbaycan Premyer Liqasında növbəti mövsümün təsdiq olunmuş formatına münasibət bildirib: "Mən variantlar arasından "altılıq" sistemi olan formatın o qədər də ədalətli olmadığını bildirmişdim. Çünki bu formatda 6-cı və ya 7-ci sıralarda yer alan komandaların nə yuxarı pillələr uğrunda mübarizə aparmaq şansı qalır, nə də I Liqaya düşmək qorxusu olur. Belə olan halda həmin komanda üçün son turlarda keçirəcəyi matçlar hər hansı əhəmiyyət daşımır. Bu amilləri nəzərə alaraq, "altılıq" sisteminin çempionatımız üçün uyğun olmadığını vurğulamışdım. Düşünürəm ki, turnirin 12 komandanın iştirakı ilə 3 dövrədən (33 turdan) ibarət olması daha yaxşı qərardır".



A.Kərimov yeni mövsümdə Premyer Liqaya yüksəlmək uğrunda bir oyundan ibarət pley-off görüşünün keçirilməsinin pis fikir olmadığını söyləyib: "Amma bu qərar "Qəbələ" və "Şamaxı" üçün haqsızlıqdır. Çünki onlar birbaşa I dəstəyə düşmüşdülər. Mən əminəm ki, bu komandalar pley-off oyunu keçirsəydilər, çempionatda qalacaqdılar. I Liqadan 3 komandanın yüksək dəstədə iştirakı da yaxşı qərardır. Sadəcə, burada dayanıqlılıqla bağlı problemlər ortaya çıxa bilər. Təbii ki, keyfiyyət olaraq yaxşı kollektiv formalaşdırmaq mümkündür. Bu kimi klubların Premyer Liqada nə qədər büdcə ilə iştirak edəcəkləri isə sual altındadır. Digər komandalarla, heç olmasa, başabaş mübarizə apara bilmələri üçün maliyyə dayanıqlılığı olmalıdır. Buna xüsusi diqqət etməlidirlər. Bir oyundan ibarət pley-off görüşünə gəldikdə isə əgər matçlar neytral meydanda keçiriləcəksə, bu, elə də böyük fərq yaratmayacaq. Bir oyunla hansısa komandanın haqqı tapdalanmayacaq. Güclü olan qalib gələcək. Avropa və dünya çempionatlarının finalı bir qarşılaşmadan ibarət olur. Belə çıxır ki, bu da ədalətsiz qərardır? Ona görə də düşünürəm ki, əlavə daha bir oyun oynamaq nəyisə dəyişməyəcək. Ola bilər ki, hansısa region komandası doğma meydanda daha yaxşı çıxış edir. Belə kiçik nüanslar var. Amma biz gərək ilk növbədə meydançalarımızı və stadionlarımızı təmin edə biləк. Meydançalarımız standartlara uyğun olmalıdır. Ondan sonra iki oyunun davasını edə bilərik".

## Milli komandamız kimə tapşırılır?

AFFA-nın İcraiyyə Komitəsinin növbəti iclası fevralın sonu və ya martın əvvəlində baş tutacaq.

Apasport.az saytına verilən məlumata görə, həmin iclasa qədər Azərbaycanın U-21 yığmasına baş məşqçi namizədləri bəlli olacaq.

İclas zamanı isə siyahı açıqlanacaq. İcraiyyə Komitəsinin seçəcəyi mütəxəssis də Azərbaycanın U-21 yığmasına baş məşqçi təyin ediləcək.

Azərbaycan yığması ilk görüşü Portuqaliyaya qarşı keçirəcək.

Qeyd edək ki, yığmamızı son olaraq Samir Əliyev çalışdırmışdı.

# 14 ildir ki...

## Avropada uzunömürlülərin sayı azalır

Şərqi İngiltərə Universiteti və tərəfdaşlarının apardığı yeni araşdırmaya görə, Avropada insan ömrünün uzanması 2011-ci ildən etibarən yavaşlayıb. "The Lancet Public Health" jurnalında dərc olunan araşdırma göstərir ki, bu vəziyyətin əsas səbəbləri piylənmə, fiziki hərəkətsizlik, qeyri-sağlam qidalanma və COVID-19 pandemiyasıdır.

"MedicalXpress" portalı xəbər verir ki, tədqiqatçılar 160-dan çox ölkədən toplanmış məlumatları təhlil ediblər və Avropada 1990-2011, 2011-2019 və 2019-2021-ci illər arasındakı ömür uzunluğundakı dəyişiklikləri araşdırıblar. Məlum olub ki, 2011-ci ildən sonra ürək-damar xəstəlikləri və xərçəngdən ölüm halları artıb. Ən ciddi azalma İngiltərədə müşahidə olunub.

Tədqiqatın rəhbəri, Şərqi İngiltərə Universitetinin professoru Nik Steel bildirib ki, XX əsrdə tibb və ictimai səhiyyədəki irəliləyişlər insan ömrünün uzanmasına səbəb olmuşdu. Lakin 2011-ci ildən sonra bu artım dayanıb. O qeyd edib ki, ürək-damar xəstəliklərindən ölüm halları 2011-2019-cu illər arasında gözlənilən ömür uzunluğunun azalmasının əsas səbəbi olub. Pandemiya isə 2019-2021-ci illərdə bu vəziyyəti daha da ağırlaşdırıb. Tədqiqat göstərir ki, 2011-ci ildən sonra əksər ölkələrdə piylənmə, yüksək qan təzyiqi və yüksək xolesterin kimi sağlamlıq riskləri ya artıb, ya da azalma tempi dayanıb. Daha yaxşı tibbi müalicə belə, qeyri-sağlam həyat tərzinin yaratdığı problemləri tam kompensasiya edə bilməyib. Professor N.Steel vurğulayıb ki, bəzi ölkələrdə, məsələn, Norveç, İslandiya, İsveç, Danimarka və Belçikada hökumət siyasətləri sayəsində ömür uzunluğunun azalması məhdudlaşdırılıb. Lakin



İngiltərə və digər Böyük Britaniya ölkələri daha yüksək sağlamlıq riskləri ilə üzləşiblər.

Araşdırma müəllifləri bildirirlər ki, uzunömürlülüyü qorumaq və artırmaq üçün gənc yaşlardan sağlam həyat tərzi formalaşdırılmalıdır. Ekspertlər həm fərdləri, həm də hökumətləri bu istiqamətdə addımlar atmağa çağırırlar. NHS İngiltərənin Xalq Sağlamlığı üzrə direktoru Sarah Price qeyd edib ki, piylənmə və qeyri-sağlam qidalanmaya qarşı daha ciddi tədbirlər görülməlidir. Onun sözlərinə görə, NHS artıq 12 həftəlik çəki idarəetmə proqramı və qan təzyiqi yoxlamaları ilə minlərlə insanın sağlamlığını yaxşılaşdırmağa çalışır. Lakin bu problemin həlli üçün cəmiyyətin bütün səviyyələrində fəaliyyət göstərmək lazımdır. Mütəxəssislər hesab edirlər ki, uzunmüddətli sağlamlıq strategiyaları olmadan, ömür uzunluğunun azalması davam edə bilər. Bu səbəbdən, sağlam qidalanma, fiziki aktivlik və piylənmə ilə mübarizəyə yönəlmiş ictimai səhiyyə siyasətlərinə daha çox sərmayə qoyulmalıdır.

## Daha iki boksçumuz beynəlxalq turnirə qələbə ilə başlayıb

Azərbaycanın daha iki boksçusu Rumıniyada gənclər arasında keçirilən "Drakula Open" turnirinə qələbə ilə başlayıb.

Azərbaycan Boks Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, Nihat Qasımov (51 kiloqram) 1/8 finalda Kristian Serbanı (Rumıniya) sınağa çəkib. Görüş təmsilçimizin 5:0 (29:27, 29:27, 30:26, 30:26, 30:26) hesablı qələbəsi ilə başa çatıb. N.Qasımov 1/4 finalda ilə mərhələdən azad olan Maksim Maşevki (Ukrayna) ilə üz-üzə gələcək.

Zidan Hümbətov (54 kiloqram) isə ilk görüşündə rumıniyalı Emzar Qransianı birinci raundda tam üstünlüklə məğlub edib. Z.Hümbətov 1/4 finalda Roman Spakla (Moldova) qarşılaşacaq.




Qeyd edək ki, "Drakula Open"də final döyüşləri fevralın 23-də olacaq.

## Azərbaycanda futbol üzrə iki yeni yığma yaradıla bilər

Azərbaycanda iki yaş qrupu üzrə yeni futbol yığmaları yaradıla bilər.

Bu barədə AZƏRTAC-a açıqlamasında AFFA-nın Məşqçilərin maarifləndirmə şöbəsinin müdiri Aslan Kərimov məlumat verib.

Mütəxəssisin sözlərinə görə, hazırda U-12 və U-14 komandalarının təsis edilməsi müzakirə olunur.

Lakin veteran futbolçu hesab edir ki, U-12 yığması ilə bağlı məsələdə bir qədər ehtiyatlı olmaq lazımdır: "Taktiki baxımdan bir çox şeyi dərk etməyən, inkişaf mərhələsində olan uşaqlardan ibarət komanda formalaşdırmaq riskli ola bilər. Fikrimcə, U-14 variantı daha idealdır. 12 yaşda perspektivli futbolçunu ortaya çıxarmaq çətindir. Dəfələrlə görülüb ki, bu yaşda boyu balaca, fiziki cəhətdən zəif olan uşaqlar yetkinlik yaşına çatanda birdən-birə özlərini yaxşı tərəfdən göstərə, gələcəkdə daha irəli gedə bilirlər. Belə olan halda, U-12 yığmasına düşə bilməyən futbolçuları itirə bilərik. Burada bir çox amil var. Əslində bu yaşda uşaqlara milli komandada yox, klublarda diqqət ayrılsa, daha effektli nəticə əldə etmək olar".




Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4642
Sifariş: 397
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova